# DİL KOQNİTİV, RİTORİK VƏ NEYROBİOLOJİ ELMLƏRİN QOVŞAĞINDA

*Günel Bayramova*



**Günel Bayramova**

# DİL KOQNİTİV, RİTORİK VƏ NEYROBİOLOJİ ELMLƏRİN QOVŞAĞINDA

*Azərbaycan Dillər Universitetinin*
*Tərcümə fakültəsinin Elmi Şurasının*
*(22 aprel 2025-ci il, protokol № 09) qərarı*
*ilə çapa tövsiyə olunmuşdur*

**Bakı - 2025**

**Elmi redaktor:**

**İdris ABBASOV,** filologiya elmləri doktoru, professor

**Rəyçilər:**

**Aytən Allahverdiyeva**, filologiya üzrə fəlsəfə doktoru, dosent

**Elnurə Abbasova,** filologiya üzrə fəlsəfə doktoru

**Günel Bayramova. Dil koqnitiv, ritorik və neyrobioloji elmlərin qovşağında. Bakı: Füyuzat, 2025, 180 səh.**

Linqvistik, konseptual və mental səviyyələrdə təzahür edən neyrokoqnitiv və psixodinamik təkamül prosesi müasir dilçilikdəki yanaşmaların antroposentrik kontentini müəyyənləşdirir və semio-koqnitiv yanaşma paradiqmasının mehvərini təşkil edir. Monoqrafiyada müasir dünya dilçiliyinin ən yeni nailiyyətləri tətbiq olunmaqla ritorik, koqnitiv və neyrobioloji elmlərin qovşağında dilin mövqeyi və funksiyası müəyyənləşdirilir, koqnitiv semiotikanın semantik çoxaspektliliyi üzə çıxarılır, təfəkkürün bioloji ekzaptasiyası, neyrokoqnitiv psixodinamika məsələləri tədqiqat müstəvisinə gətirilir. Dil və beyin arasındakı əlaqənin araşdırılmasının linqvistik fəaliyyətin aydınlaşdırılmasında mühüm rol oynaması təsbit olunur.

Kitabdan ali məktəb müəllimləri, tələbələr, dil tədqiqatçıları, filoloqlar, müxtəlif profilli dilçilər istifadə edə bilərlər.

ISBN: 978-9952-584-97-4

© Günel Bayramova

# MÜNDƏRİCAT


Giriş ........................................................................ 4

Koqnitiv, ritorik və neyrobioloji aspektdə dil ........................... 9

Koqnitiv semiotika və semantika ........................................... 29

Koqnitiv semiotika mənanın çoxaspektli təhlili kimi ............ 38

Tomas C. Daddesionun semiotik görüşləri ............................ 48

Təfəkkürün bioloji ekzaptasiyası və mental metaforalar ........ 59

Mental metaforaların təkamül konsepsiyası .......................... 70

Metaforik təfəkkürün neyrokoqnitiv psixodinamikası............ 87

Süni intellektə antroposentrik yanaşma ............................... 101

İstifadə edilmiş ədəbiyyat .................................................. 117

*Bəzi dilçilik terminlərinin izahı* ............................................ 132

*Terminlərin izahında istifadə olunan mənbələr* .................... 178

# GİRİŞ

Bu gün ölkəmizdə müasir dünya dilçiliyinin nəzəri səviyyəsinə uyğun elmi tədqiqat işlərinin yerinə yetirilməsi bir məqsəd kimi qarşıya qoyulmuşdur. Son onilliklər ərzində dünyada neyrolinqvistika, biosemiotika, psixolinqvistika, neoritorika, koqnitiv linqvistika və digər yeni dilçilik cərəyanları ilə bağlı geniş araşdırmalar aparılır. Məlumdur ki, bütün koqnitiv nəzəriyyələrin əsaslandığı bir elmlər qovşağı mövcuddur. Hazırda koqnitiv neyrobiologiya (neyroelm), süni intellekt, koqnitiv dilçilik və semantik freymlər üçün vahid nəzəriyyənin hazırlanması və inteqrasiyası cəhdləri edilir. Neyropsixologiya və yaxud koqnitiv neyrobiologiya ilə qarşılıqlı əlaqədə olan bütün elm sahələrinin yeni neyro-elmdə birləşməsi məsələsi bu gün alimlərin fikrini məşğul etməkdədir.

İlkin müasir mərhələdə dilə olan diqqətin artması dilin ritorik nəzəriyyəsi üçün əhəmiyyətli olub beyin tədqiqatları üçün faydalı biliklər verir. Belə nəzəriyyə yazılı və ya şifahi mətnin emosional tutumunu təşkil edən səs modellərinin əhəmiyyətini vurğulayır. Dilin ritorik nəzəriyyəsi ünsiyyətdə insan faktorunun əhəmiyyətini istisna etmədən niyyət və məqsədin ötürülməsi və dekodlaşdırılmasını təqdim edir [Fahnestock 2005].

Təbii ki, dillə təfəkkürün qarşılıqlı əlaqəsi haqqında dəyərli əsərlər qələmə alınmışdır. Dünya dilçiliyində ayrı-ayrılıqda koqnitiv linqvistika, semiotika, koqnitiv psixolo-

giya, ritorik fiqurlara və s. dair xeyli tədqiqatlar aparılmışdır [Group, μ.; Eco 1984; Brandt 2014].

Koqnitiv linqvistlər və neyrobioloqlar beyin funksiyasının koqnitiv proseslərlə və obrazlı dillə sıx əlaqədar olduğu qənaətinə gəlmişlər. Bu zaman koqnitiv semiotikaya da diqqət artmışdır. Koqnitivizmin inkişafı, ümumiyyətlə, semiotikasız mümkün deyil. İşarələrin təbiəti və növlərini anlamaq koqnitiv elmin metodoloji əsasını təşkil edir. Koqnitiv proseslər mental hadisə və əməliyyatların nizamlı ardıcıllığını əks etdirir. Bu ardıcıllıqda mühüm rolu ətraf mühitlə bağlı informasiyaların emalı oynayır. Bu, koqnitiv elmin ilkin mərhələsində və hətta müasir koqnitiv elmin əsasında dayanan fikirlərdir [Marconi 2008:183].

Bilik obyekti iki və daha çox reprezentasiyaların "eyni obyekt"in reprezentasiyaları olmaları haqqında bilikdən irəli gəlir. Bu zaman onların məzmunu ortaq olmaya bilər. R.Duvalın yanaşmasına görə, eyni obyektin müxtəlif sistemlərdə mümkün reprezentasiyaları semiotik və ya qeyri-semiotik sistemlərin müxtəlifliyindən asılıdır. Reprezentasiyaların yaranmasının fenomenoloji formaları daha çox funksional təhlil üçün əhəmiyyətlidir. Onların yaranmasının struktur təhlili isə həmin reprezentasiyaların məzmunu və yaranması ilə fərqlənir [Iori 2015:57]. Burada metafora koqnitiv fəaliyyət növü kimi həmin fəaliyyətin verbal forması olan "metaforik ifadə"dən fərqlənir. Bu baxımdan reallığın konseptuallaşmasında linqvistik fenomen olan metafora və ya metaforik mətn həm konseptual, həm də verbal səviyyəli fəaliyyətə cəlb olunur. Konseptual səviyyədə

əsas mental sahəyə aid məna ilə abstakt sahəyə aid məna arasında əlaqələndirmə qurulur. Buna görə də dil və təfəkkürün demək olar ki, bütün abstarkt anlayışları (zaman, kəmiyyət, situasiya, dəyişiklik, fəaliyyət, səbəb, təklif, vasitələr, keyfiyyət, hətta kateqoriya) metaforikləşir.

Metafora konseptual sistemin ayrılmaz bir hissəsidir. O, insanlar tərəfindən reallığı konseptuallaşdırma formalarından biridir. Təcrübələri dərk edib fəaliyyət göstərməyimiz metaforalardan asılıdır. Bəzi alimlər mental təsəvvürlərin yaranmasını insan beyninin təbii prosesi kimi xarakterizə etsələr də, digərləri bunu təfəkkür prosesinin əsası yox, aktuallaşma vasitəsi hesab etmişlər. Lakin istər simvolizmin, istərsə də konseptualizmin nümayəndələrinin fikirləri koqnitiv proseslərin mürəkkəbliyini tamlığı ilə müəyyən edə bilməmişdir. Sillogizmlə bağlı bəzi tədqiqatlar göstərdi ki, mental təsəvvürlər sillogizmin sadələşdirilməsində mühüm rola malikdir. Bu xüsusilə vizualizasiya proseslərində özünü göstərir. Bəzi hallarda mental təsəvvürlərdən istifadə koqnitiv əməliyyatlar üçün dağıdıcı effektə malik ola bilər və müvafiq nəzarət olmadıqda yalnış reprezentasiyalara yol aça bilər [Danesi 2015:496].

İ.Abbasov koqnitiv dilçiliyin başlıca hədəfinin forma və mənanı birləşdirmək istiqaməti üzərində qurulduğunu iddia edərək belə qənaətə gəlir: "*Linqvistik məna insan şüurunda avtonom bir sistem deyildir, əksinə, o, bizim konseptual dünyamızın ayrılmaz hissəsidir. Koqnitiv dilçilik konseptual kateqoriyaların klassik təsnifatında Aristotel ənənəsindən və obyektiv realizmin hər hansı bir forma-*

*sından qopmuşdur. Qeyd edək ki, sözügedən obyektiv realizm reallığa yanaşmada əqli müstəqilliyi və mütləq həqiqətləri qəbul edir. Koqnitiv dilçilik, bundan fərqli olaraq, öz fəlsəfi təməli kimi təcrübi realizmi və fenomenoloji nöqteyi-nəzəri qəbul edir*" [Abbasov 2017:48-49].

Koqnitiv linqvistika mütəxəssisləri fiqurativ dilin fundamental əhəmiyyətə malik olduğunu artıq müəyyən etmiş və onun insan idrakı baxımından əhəmiyyətini sübuta yetirmişlər. Fiqurativ dil konseptualizasiyada mühüm rol oynayır və koqnisiyanın əsasını təşkil edir.

S.Budela "koqnisiya" terminin mahiyyətini izah edərkən bildirir ki, "koqnitiv" anlayışı müxtəlif elmlərdə müxtəlif şəkildə işlənməkdədir. "*Sözün məhdud mənasında "koqnisiya" şüur və idrakla/təfəkkürlə sinonimlik təşkil edir. Geniş mənada bu anlayış beyinin sensor reseptorlarla topladığı informasiyanı qavrama, yaddaşda saxlama, informasiyanı emal etmə və istifadə etməsidir. Hər hansı bir prosesi koqnitiv hesab etmək üçün həmin prosesin müəyyən məqsədə çatmaq üçün ardıcıl fəaliyyət kompleksindən ibarət olması lazımdır. İnsan beyninin həyata keçirdiyi koqnitiv proseslər arasında təbii dil ən əsas fəaliyyətdir və bu dilçilik, psixologiya, neyropsixologiya kimi müxtəlif elmlərin, çoxsaylı tədqiqatların obyektini təşkil edir. Bütün bu tədqiqatların məqsədi dilin emalı ilə təfəkkürün strukturu arasındakı əlaqəni müəyyənləşdirməkdir*" [Boudelaa 2006:421]. Doğrudan da, koqnisiyanın dilçilikdə, psixologiyada, neyropsixologiyada, koqnitiv elmlərdə müxtəlif cür şərh olunduğunun şahidi olmaq olar. Digər tərəfdən, irəlidə görəcəyimiz kimi bəzi

alimlər təfəkkür və koqnisiya arasında dəqiq sərhəd qoysalar da, digərləri idrak, şüur, təfəkkür, koqnisiya, hətta beyin kimi denominasiyaları sinonimik mənada işlətmişlər. Ancaq istənilən halda Budelanın haqlı olduğu əsas məqam odur ki, hansı elm sahəsində işlənməsindən asılı olmayaraq koqnisiya əsas etibarılə dilin beyində emalı məsələlərini müəyyən etmək məqsədi daşıyır.

Bəzi koqnitivistlər haqlı olaraq iddia edirlər ki, nitq fiqurları və troplar mental təfəkkürün təməl linqvistik sxemlərini yaradır. Məhz bu sxemlər vasitəsilə insanlar öz təəssüratlarını və daxili dünyalarını dərk edirlər. Mürəkkəb və mühüm məsələlər haqqında düşünmək üçün alimlər koqnitiv və mental ritorikaya müraciət edirlər. Konseptual metaforalar bir mövzunun digər bir mövzu müstəvisində canlandıran mental ifadələrdir. Konseptual metonimiyada subyekt hər hansı reprezentasiyada birbaşa fokalizasiya edə bilmir və bunun əvəzinə onun hər hansı bir hissəsi, effekti, xüsusiyyəti, əlaməti və s. ilə səciyyələnir.

Beyinin fiziki tərəfi ilə maraqlanan neyroelmlərlə məşğul olan alimlər çox vaxt fərqli primatlar üzərində tədqiqatlar aparsalar da, dil bunların mərkəzində dayanmışdır. Dildən istifadə özünün mürəkkəb manifestasiyalarında ritorikanın tədqiqat obyekti olsa da, ümumilikdə dil həm koqnitiv, həm də neyrobioloji elmlərin tədqiqat obyektinin əsasını təşkil edir.

# KOQNİTİV, RİTORİK VƏ NEYROBİOLOJİ ASPEKTDƏ DİL

Qədimdə dil haqqında təsəvvürlər fəlsəfə, filologiya, texniki qrammatika, ritorik nəzəriyyə, ədəbiyyatşünaslıq, habelə vəzn və musiqi tədqiqatları ilə müşayiət olunurdu. Müxtəlif sahələrdə çalışan alimlər arasında intensiv əlaqələrin olması müxtəlif elm sahələrinin bir-birinə təsir etməsini asanlaşdırırdı. Bəzi müəlliflər linqvistika adı altında filologiya, qrammatika, fəlsəfə, ritorik nəzəriyyə və ədəbiyyatşünaslığı nəzərdə tuturlar. Kasper De Jonge "dilə baxış" adı altında mütləq surətdə texniki nəzəriyyələri (qrammatik, fəlsəfi, musiqi) əhatə etməyən linqvistik xarakteri nəzərdə tuturdu [De Jonge 2004:2]. Hazırkı monoqrafiyada dili koqnitiv, ritorik və neyrobioloji elmlərin tədqiqat obyekti kimi nəzərdən keçirəcəyik. Son dövrlərdə psixologiyanın inkişafı ilə əlaqədar olaraq təfəkkür və koqnisiya bir-birindən fərqli şəkildə təhlil olunur. Lakın bu iki istilah arasında dəqiq sərhəd müəyyənləşdirmək mürəkkəb olduğundan bunların birinin digərindən nə ilə fərqləndiyini göstərmək lazımdır. Fəlsəfi nöqteyi-nəzərdən yanaşsaq, koqnisiya şüurun məlum əşya ilə müəyyən əlaqədə olduğu vəziyyəti əks etdirir. Təfəkkür isə, həmin vəziyyəti əks etdirmir, çünki təfəkkür koqnisiyanı hasil etmə aktıdır. Buna görə də, bir şey haqqında düşünmək hələ onu bilmək demək deyil, həmin şey haqqında düşünməyə davam etməklə onu bilməyin yolunda olmaqdır. Təfəkkür

subyektivdirsə, koqnisiya obyektivlik anlayışını əks etdirir. Bir sözlə, təfəkkür koqnisiyanı hasil etməyə yönələn zəkanın (ruhun, ağlın) fəaliyyətidir. Həmin fəaliyyət koqnisiyanın bütün dərəcələrində və növlərində özünü biruzə verir. Qismən duyğu orqanları tərəfindən hasil edilməsinə baxmayaraq o, həssas koqnisiyada olan fəaliyyətdir. Burada diqqət mühüm rol oynayır. Çünki təfəkkürün səyi olan həmin diqqət olmasa, insan biz ətrafda baş verənlərin fərqində ola bilməz. Buna görə də təfəkkürü, orqanlarımızın istifadə etdiyi təmiz duyğudan fərqləndirmək lazımdır. Biz duyğunu ayırd edən kimi, təfəkkür öz yerini alır. Birbaşa duyğu ilə bağlı olan koqnisiyadan danışanda çox vaxt intuisiya, raprezentasiya kimi sözlərdən istifadə olunur və təfəkkür fərqləndirilir. Bilmək lazımdır ki, "təfəkkür koqnisiya məqsədi daşıyan bütün fəaliyyətlərdə aktivdir. Belə ki, yalnız appersepsiyadan əvvəl gələn təfəkkürün fəaliyyəti sayəsində bizim intuisiya və ya rapprezentasiyamız formalaşmışdır" [Boccardo 1878:1149].

Son zamanlar koqnitiv dilçilikdə belə bir konsepsiya yaranıb ki, simvolik sistemlər kimi təbii insan dilləri bioloji əsasa malik olub koqnitiv cəhətdən motivasiya olunmuş, qrammatik cəhətdən qurulmuşdur. qeyd edir ki, əgər linqvistika dilin və ya dillərin elmi tədqiqinə yönəlibsə, deməli, onun koqnitiv məqsədi vardır [Graffi 2013:18]. Bundan başqa koqnitivist alimlər, xüsusilə də spekulyativ xarakterə malik olanları, mental prosesləri təsvir edərkən çox vaxt buna informasiya emalı kimi baxır və hətta informatikada işlənən "input" / "output" terminlərdindən istifa-

də edirlər. Bu kimi terminlər və yanaşmalar informatika elmlərinin artan təsirini və beyinin çox vaxt kompüterlə analogiya əsasında öyrənilməsini göstərir, baxmayaraq ki, bu məsələ ilə bağlı fikir ayrılıqları mövcuddur. Beyinin kompüterlə eyniləşdirilməsi kimi reduksionist yanaşma, ritorika və koqnitiv elmlər arasındakı uçurumu daha da artırmış, dilin əsas təbiəti və məqsədi ilə bağlı fikir ayrılıqlarına gətirmişdir. Analitik dilçiliyin, xüsusilə N.Çomskinin fikirlərinin koqnitivist dilçilərə müəyyən təsiri olmuşdur [Dodd 2009:1031]. İki istiqamət arasındakı qarşılıqlı anlaşmaya mane olan cəhətləri bir daha vurğulamaq üçün qeyd etmək lazımdır ki, koqnitvistlər "dil emalını" ritoriklərin baxdığı istiqamətdən, yəni danışanın məqsəd, niyyət, hədəf, fəaliyyəti baxımından nəzərdən keçirmirdilər. Koqnitivistləri daha çox həmin məqsədləri mümkün edən prosеslər maraqlandırmışdır: məsələn, beyin hər hansı bir nitq siqnalını necə dekodlaşdırır və ya bir sözü görəndə biz onu necə tanıya bilirik kimi məsələlər. İnterpretasiyanın bu istiqamətdə məhdudlaşdırılması, ekperimental metod və mexanizmlərlə kifayətlənən neyrobioloqlar və psixolinqvistlər üçün yararlı ola bilər. İnsanın hər hansı bir MRT aparatında təbii dildən istifadəsini diaqnostika etmək asan deyil. Psixolinqvistlərin bir qulağa və bir beyin yarımkürəsinə səs ötürməklə bir sıra süni ekspetimentlər keçirməyə çalışmalarına baxmayaraq, dilin emalının insan məqsədləri ilə əlaqələndirilməsini müəyyən edə biləcək nəzəriyyə və ya təcrübə mövcud deyil [Fahnestock 2005:161]. N.Çomskiyə istinad edən Maykl Tomaselli

göstərir ki, generativ qrammatika dili öyrənməyin və tətbiqinin biheviorist nəzəriyyələrinin kəskin tənqidi ilə psixoloqların diqqətini cəlb etmişdir. Bu tənqid koqnitiv inqilabın reallaşmasında mühüm rol oynamışdır. N.Çomski elmi tədqiqatlarda qəbul olunmuş insan davranış və təfəkkürünün biheviorial müşahidələrinə söykənmirdi. Bunun əvəzində o, məntiqi arqumentlərə üstünlük verirdi, "abstrakt sintaksis dil istifadəsinin konkret hallarını müşahidə etmək yolu ilə öyrənilə bilməz" [Tomasello 1995:131]. Çomskinin fikirlərində daim fərqlər müşahidə edilməsinə baxmayaraq, hazırda özünün "minimalizm" mərhələsində olan Çomski və onun tərəfdarları hələ də insan dilinin hansısa unikal sintaktik komponentləri ilə bağlı fikirlərində qalırlar [Fahnestock 2005:162]. N.Çomskinin dil nəzəriyyəsini "aritorikal", hətta "anti-ritorik" adlandırmaq olar. İlk növbədə Çomski bacarıq və davranış arasında kəskin fərq müəyyən edir, dili faktiki istifadədə yox, innativ "bilik" kimi nəzərdən keçirirdi. Dilin bu şəkildə abstrakt bacarıq olması ilə bağlı fikirdən sonra Çomski onu formal və məntiqi model kimi təsvir edirdi. Çomskinin fikrincə, insan beynində möv- cud olan bu dil sistemi riyazi məntiqə əsaslanmalıdır, və o dili bu şəkildə təsvir etməyən digər nəzəriyyələrə qarşı çıxırdı [Tomasello 1995:134]. Biz dilin müəyyən qədər innativ olduğu fikri ilə razılaşırıq. Belə mülahizə irəli sürmək olar ki, əgər təfəkkürürlə sıx bağlı olan dil innativ olmasaydı, onda heyvanlarda bu bacarığı inkişaf etdirmək olardı. Çomski nitq fiqurlarını elə də əhəmiyyətli kateqoriya hesab etməyərək özünün kompetensiya model-

lərində onları diqqətdən kənarda qoymuşdur. S.Keyli və digər iki müəllif yaddaşda biliyin reprezentasiyasından bəhs edir və mətn elementləri arasındakı bilik konstruksiyasının müxtəlif səviyyələrini tədqiqata cəlb edirlər [Caillies 1998:203-208]. Onlar uğurlu analogiyalar apararaq qeyd edirlər ki, yetkinlik yaşına çatmış bir monqol öz ana dilini danışmağa qabildir. Lakin bu, o demək deyildir ki, həmin şəxs monqol dilində xüsusi "linqvistik kompetensiya"ya sahibdir. Bəzən N.Çomskinin "kompetensiya modelləri"nə etiraz edilir. Bu, onunla əsaslandırılır ki, belə modellər "ideal", səhvsiz performanslar təqdim edir. Çomskinin dil haqqında biliyində səhv etmək mümkün görünmür. Əslində, etirazların olmasına haqq qazandırmaq olar, çünki səhvsiz bir sistem hansısa problemi tam öyrənə bilməz . Onu da qeyd edək ki, "linqvistik kompetensiya" tamamilə antipsixoloji hadisədir [Campbell 1998:210]. Beləliklə, özünün ən parlaq nümayəndəsi Çomski ilə, analitik dilçilik dilin ünsiyyət vasitəsi kimi nəzərədən keçirilməsinə çalışmayıb. Əksinə, bu istiqamət dili daha çox referensial, reprezentativ vasitə və ya formal məntiqi və hesablama (computational) sistemi kimi nəzərdən keçirmişdir. Heç kəs inkar etmir ki, insanlar dili hər hansı bir şeyi əsaslandırmaq və ya fikirlərini ifadə etmək üçün istifadə edirlər. Lakin Pinkerin "Sözlər və qaydalar" əsərinin girişində qeyd etdiyi kimi, bəli biz istinad edirik lakin "müxtəlif ideyalarla başqalarının başını doldurmaq" dilin əsas funksiyasıdırmı? Dilin ritorik cəhətdən təhlili istənilən halda funksionallıq və qarşılıqlı fəaliyyəti əks etdi-

rir. Ritorik nöqteyi nəzərdən dil, referenti olan qrafik və ya akustik simvolların motivləşməmiş (unmotivated) assosiasiyası üçün sadə sistem sayıla bilməz, nə də ki, dil beyində sintaksis yaratmaq funksiyası yerinə yetirən "linqvistik modul" rolunda çıxış etmir [Fahnestock 2005:162]. Mental leksika və mental qrammatika insanın dil aparatının mühüm komponentlərini təşkil edə bilər, bəs onda niyə insanlar ümumən əlaqələndirmə (pairing), əsaslandırma (referring) və sintaksis yaratmağa cəhd edirlər? Aydındır ki, *homo rhetoricus* dili öz ehtiyaclarına cavab vermə, məsqədlərinə çatma üçün istifadə edir. Dilə dünyada fəaliyyət nöqteyi-nəzərindən baxanlar üçün bu yanaşma əhəmiyyət daşıyır, digər tərəfdən təkamüllə bağlı da bu? əhəmiyətlidir. Həyatda qalmaq üçün mübarizədə təkamul prosesində orqanizmin müəyyən funksiyalarına təzyiq və selektiv proseslər də öz rolunu oynamışdır. Bu baxımdan əsaslandırma və ifadə etmə kimi funksiyaları, əməkdaşlıq, təhlükə haqqında məlumatlandırma, dominantlığını təyin etmə kimi birinci dərəcəli funksiyalara xidmət edən ikinci dərəcəli funksiyalar adlandırmaq daha yaxşı olardı. Əgər dilin ritorik nəzəriyyəsi mövcud olsa idi o necə olardı və koqnitiv dilçiliyə necə xidmət edərdi? Ritorikanın dili daha çox teleoloji hesab edir nəinki analitik dilçilik. Lakin dilin məqsədilə bağlı konsepsiyalar dil nəzəriyyəsi üçün kifayət deyil. Dil haqqında əsaslı nəzəriyyə, həm də irihəcmli sxemlərin əldə olunması üçün lazım olan kiçikhəcimli funksiyaları da izah edə bilməlidir. Ona görə də dil nəzəriyyəsi həm də müəyyən xüsusiyyətlərin identifikasi-

yasını əks etdirə bilməlidir. Biz bu sistemi "parser" (proqram/sistaktik mexanizm) adlandıracayıq. Baxmayaraq ki, bu termin komyuter texnologiyaları ilə bağlıdır, onun latın və yunan kökləri formal xüsusiyyətlərin müəyyənləşdirilməsi mənasında "parsing" (sintaktik təhlil) mənası da var. "parser"lə dilin elementlərini tapmaq mümkündür. Cümlələrin, sözlərin, ifadələrin növlərini müəyyən edən istənilən qrammatika - ənənəvi, törədici, konstruktiv – bir növ sintaktik identifikator (analizator) rolunda çıxış edir. Hansı elementlərin identifikasiya olunmasından asılı olmayaraq "sintaktik identifikator" (parser) məzmundan asılı olmadan formal linqvistik xüsusiyyətləri müəyyən edir. Rirotik "sintaktik identifikator" (a rhetorical parser) entimema və topoi (topos) kimi yüksək sintaktik səviyyəni əhatə edir və identifikasiya olunan funksiyaların onların istifadəsi ilə bağlayır [ibid:163]. G.Bokkado təfəkkürü ruhun (əqli bacarığın – müəl.) daimi əməliyyatı hesab edirdi, çünki insan yaşadığı müddətcə istər-istəməz daim düşünür və bu fəaliyyətdən könüllü surətdə azad ola bilmir. İnsan həyatının elə bir anı yoxdur ki, düşünmə prosesi dayansın. Koqnisiya nədir? O öz-özünə mövcud deyil, mövcud olanın, yəni zəkanın xüsusiyyətidir. Hər bir varlığın xüsusiyyəti kimi o da ya sadə, ya da müəyyən əlaqədə ola bilər. Koqnisiya tanıya bilən ağılla dərk olunan əşya arasında əlaqədir. Deməli, o ağıl, zəka vahidi, təbiət ekstensiyası kimi sadə keyfiyyət deyil, əlaqə xüsusiyyətidir. Təfəkkür daim məzmun axtarışındadır. Beləliklə, təfəkkür zəkanın daim nəyəsə yönələn immanent funksiyası, fəaliyyətidir. Təfəkkürü

koqnisiya ilə əlaqədə nəzərdən keçirdikdə belə bir fakt nəzərə çarpır: hər bir konkret fikir zəkada daha öncəki koqnisiyanı ehtiva edir. “Coğrafiyaşünas məkan haqqında ümumi fikrə malik olmasa, digər problemlər haqqında fikir yürüdə bilməz. Eynilə də təfəkkür bir tərəfdən koqnisiya hasil etməyə yönəlsə də, digər tərəfdən artıq koqnisiyanın özünü ehtimal etsə də, onun vəzifəsi artıq zəkanın şüurunda (coscienza dello spirito!!!) mövcud olan koqnisiyanı inkişaf etdirməkdir. Koqnisiyada 3 şeyi fərqləndirmək lazımdır: tanınan olmaq (tanış olma?), tanına bilmə və nəhayət bu ikisini əlaqələndirən koqnisiya” [Bokkardo 1878:1149].

R.Dirvenin və M.Verspunun mülahizələrinə əsasən hesab etmək olar ki, koqnitiv dilçilik sərhədləri müəyyən olunmayan geniş ərazidən ibarət arxipelaqa bənzəyir. Dil insanın malik olduğü bütöv bir koqnitiv sistemin bir hissəsidir. Bu o deməkdir ki, dil insanın qavrama, kateqoriya yaratma və anlayışlar formalaşdırma tərzi, abstraksiya etmə, hissləri duyma, məqsədlərə nail olma və s. bacarıqları, yəni ümumilikdə düşünmə və dərk etmə ilə bağlantıya malikdir [Dirven 2004]. Koqnitivist alimlər və neyrobioloqlar nə vaxtsa beyin və koqnitiv proseslər, ən çox da insanların dildən və obrazlardan istifadə modeli ilə bağlı razılığa gəlsələr, şübhəsiz ki, bu modellər ritorik ənənələrdəki insan ünsiyyəti modeli ilə ayrılmaz əla- qə təşkil etməlidir. Neyrobioloqların və koqnitivistlərin əldə etdiyi konkret nəticələr çətin ki, ritoriklərə maraqlı olsun. Beyinin hər hansı bir hissəsində hansısa neyron ötürücünün fəaliyyət prinsipini

bilmək və ya diqqətə təsir etdiyini sezmək ritorikin öyrəndiyi fenomenləri açıqlamaq üçün çətin ki, qənaətbəxş izah versin. Lakin bununla belə bu iki sahənin kəsişmə nöqtələri də vardır. Onlar bir birinə məlumat ötürür, koqnitiv elm öz nəticələrini ritorikaya təqdim edə bilir, hərçənd ki, onlar fərqli səviyyələrdə fəaliyyət göstərir və müxtəlif məsələlərə cavab verirlər. Beyinin fəaliyyətini başa düşmək əslində dilin fəaliyyətinin daha yaxşı izahına xidmət edir, sonuncu isə öz növbəsində effektiv dilin, yəni ritoriklərin öyrəndiyi inandırma bacarığı, mürəkkəb tarixi proseslərin daha yaxşı izahına yol açır. Ritorik ənənələrdə koqnitiv neyrobiologiya üçün faydalı elementlər mövcuddur. Müasir neyrobiologiyanın bəzi nəticələri üslubi ritorika üçün yeni perspektivlər açır [Fahnestock 2005:161]. C.Lakoff və M.Consona istinad edən C.Baççanella qeyd edir ki, koqnitiv linqvistika müstəvisində dil sistemi və dilin strukturu konseptual metaforalarda olduğu kimi insan bədəninin təcrübəsi və biliklərlə bağlı koqnitiv motivasiyaya əsaslanır (Lakof, Johnson 1984). Bu, idiomatik ifadələrdə də özünü göstərir, məsələn: voltare le spalle (üz döndərmək – hərfən: çiynini çevirmək – müəl.). Burada fiziki hərəkət uzaqlaşma, üz döndərmə, tərk etmə və bu kimi oxşar emotiv təcrübəni aşkarlayır [Bazzanella]. Koqnitiv dilçilik məhz dil strukturunun və dil davranışının əsasında dayanan, koqnitiv mexanizmlərə diqqət edir. O, dilin mənimsənməsi, emalı, formalaşması və biliyin təcrübə, hiss, düşüncə yolu ilə dərk edilməsini, bir sözlə, koqnisiyanı aşkara çıxarır. Təfəkkür, dil, təcrübə, hiss, emosiya vasitəsilə

inkişaf etdirilən bu mental proses və fəaliyyət psixoloji, neyropsixoloji, (neyrobioloji – müəlliflər) təcrübi, sosial aspektləri özündə əks etdirir [ibid]. Horvard Gardner 1985-ci ildə yazdığı "koqnitiv inqilab"ın tarixi ilə bağlı əsərində "koqnitiv dönüşü" 50-ci illərin biheviorizm görüşlərindəki məyusluqla və bunun ardınca dilçilik, psixologiya, antropologiya kimi bir sıra elmlərin birləşərək öyrənilən obyektlərin arxasında qalan mental proseslərin tədqiqinə başlaması ilə izah edir. Eyni zamanda kompyuter elmləri, xüsusilə süni intellekt sahəsində tədqiqatlar, koqnitiv proseslərin aydın modelini təklif etdi, neyrofizioloqlar isə beyinin fiziki təsvirinə diqqəti artırdılar. Növbəti onillikdə beyin və təfəkkür sahəsindəki tədqiqatçılar iki istiqamətdə qruplaşmağa, koqnitiv elm və ya koqnitiv tədqiqatlar adı altında spekulyativ alt sahədə (subdiscipline) cəmləşən tədqiqatçılar və neyroelm və ya koqnitiv neyroelm adı altında "ağır" elm alt sahəsində cəmləşənlər. Bununla belə bütün bu istiqa mətlərin səyləri hiss, klassifikasiya, yaddaş, dil və təfəkkür kimi mental proseslərin bioloji sistemdən necə əmələ gəldiyini tapmağa yönəlmişdi. Bu tapmacanın bəzi elementləri – məsələn vizual qavrama - müəyyən boşluqları doldurmağa kömək etmiş (yəni pazlın düzəldilməsi üçün bəzi detallar tapılmışdır-vizual dərketmə kimi detallar), digər sahələrdə isə inanılmaz sayda tədqiqatlar davam edir. Koqnitiv elmlərin uğurlu və fəal sahələrdən biri kimi tanınmasına baxmayaraq XXI əsrin əvvəllərində alimlər beyinin iş prinsipi barədə hələ az məlumatlı olduqlarını etiraf edirlər. Və yad- daş və ya dili kimi

əsas insan bacarıqlarını təmin edən mental proseslər haqqında fundamental fikir ayrılığı mövcuddur [Fahnestock 2005:162]. Son bir-neçə onillik bütün dünyada beyin, təfəkkür və "koqnisiya"nın öyrənilməsi ilə məşğul olan mərkəzlərin, proqramların, institutların, şöbələrin yaradılması, genişləndirilməsi, təkmilləşdirilməsinə həsr olunmuşdur. Bu gün tədqiqatçılar və tələbələr Pensilvaniya Universitetinin Koqnitiv Elmlər üzrə araşdırmalar institututu, Kaliforniyanın San Fransisco Universitetinin inteqrativ neyroelmlər mərkəzi, Meriland Universitetinin Neyroelm və Koqnitiv elmlər üzrə doktorantura proqramları, Yaponiyanın Riken Beyin İnstitutu, Fransanın Beyin və Koqnisiya araşdırmaları Mərkəzi kimi tədqiqat mərkəzlərində "koqnitiv tədqiqatlar" və "koqnitiv elmlə" məşğul olurlar. Beyinin iş mexanizminin təsvirindən tutmuş, təfəkkürün spekulyativ fəaliyyətinə qədər, bu sahədə çoxlu sayda konfranslar keçirilmiş, jurnallar və kitablar dərc olunmuş, qrantlar ayrılmışdır. Corc Buş 1990-cı il Prezident Bəyannaməsində 90-cı illəri "beyin onilliyi" adlandırmışdır. XXI əsrdə "beyin rezervuarda" (brain-in-a-vat) perspektivləri üstünlük təşkil edir. Barak Obamanın BEYİN təşəbbüsünü qeyd etmək olar (Qabaqcıl İnnovativ Neyrotexnologiyalar vasitəsilə Beyin Tədqiqatları). İstər Buşun, istərsə də Obamanın açıqlamalarında beyin bizim düşüncə və davranışlarımızın mənbəyi kimi müəyyənləşdirilir [Restivo 2019:45]. Bu sahəyə marağın artma səbəblərindən biri də alsheymer, şizofreniya, autizm və kimyəvi məhlullardan asılılıq kimi beyinlə əlaqəli xəstəliklərin art-

ması haqqında biliklər idi, lakin tibbi maraqlar daha dərin tədqiqat tələb edir. Ayrı-ayrı fərdlərə, tədqiqat proqramlarına ayrılan misli görünməmiş vəsaitlər elmin bu böyük sərhəddinin inkişafında beyinin idrakı necə yaratması prosesini öyrənməyə stimul verdi [Fahnestock 2005:159]. Veyn Vaytn qeyd edir ki, istənilən halda koqnisiya psixologiyada sözün geniş mənasında mental proseslərə və təfəkkürə aid olur. Hələ psixologiya müstəqil elm kimi XIX əsrdə meydana gələndə onun əsas konsentrasiya nöqtəsi təfəkkür idi. Mental proseslər introspeksiya (öz hiss və düşüncələrini tədqiq etmə – müəlliflər) vasitəsilə öyrənilirdi ki, bu metod məhsuldar deyildi. Psixologiyanın empirik yanaşması müşahidədən asılı idi. Xüsusi psixi hadisələr müşahidədən yayınırdı [Weite 2017:314]. XX əsrin birinci yarısında koqnitiv tədqiqatlar biheviorizmin nəzəri dominantlığı şəraitində xeyli artdı. Koqnitiv psixologiyanın ilk nümayəndələrindən olan Herbert Simon psixologiyaya dair jurnalda təfəkkür sözünün işlədilməməsinə çağırırdı: "Siz psixologiya jurnalında ağıl sözünü işlədə bilməzsiniz – o zaman ağzınızı sabunla yumalı olacaqsınız". Sitatı C.Holden gətirib [Graffi 2013:55-60].

Ceyms Royer yazır ki, 1950-ci illərdə başlayan koqnitiv inqilab 1960-cı illərin sonunda, demək olar ki, başa çatdı. "Koqnitiv inqilab" termini Tomas Kun tərəfindən işlənib-hazırlanmış elmi inqilabın nəticələrindən istifadə etmək üçün işlədilirdi. C.Royer bir qədər də dəqiqləşdirmə apararaq koqnitiv inqilabın tarixinin 11 sentyabr 1956-cı ilə gedib çıxdığını qeyd edir. İnqilabın ilk səbəbkarı kimi

Corc Miller göstərilirdi. Bununla yanaşı "koqnitiv inqilab" terminiyalnız Tomas Kunun elmi inqilablar haqqında klassik kitabı (Kuhn, 1962) meydana gəldikdən sonra dəbə minməyə başlamışdır. Bundan sonra biheviorial baxışların koqnitiv baxışlar tərəfindən sıxışdırılması inqilab adlanırdı. Bu, bir növ T.Kunun analizlərinə üstünlük qazandırırdı. Çünki Kun yeni elmi ideyaların köhnələr üzərində dominantlığı fikrini qəbul edirdi. Lakin koqnitiv inqilabın Kunun təhlillərinə uyğun gəlməyən bəzi aspektləri də vardır. Kun göstərirdi ki, bir elmi görüşdən digərinə paradiqmal dəyişikliklərin xarakterini izah edirdi. Bu dəyişikliklər icad və kəşflərlə müşayiət olunurdu. Yeni faktlar təqdim edən paradioqma köhnəyə müvaqfiq deyildi. [Royer 2006:1-2]. J.Fahnestok Horvard Gardnerə istinadən "koqnitiv dönüşü" 50-ci illərin biheviorizm görüşlərindəki məyusluqla və bunun ardınca dilçilik, psixologiya, antropologiya kimi bir sıra elmlərin birləşərək öyrənilən obyektlərin arxasında qalan mental proseslərin tədqiqinə başlaması ilə izah edir. Eyni zamanda kompüter elmləri, xüsusilə süni intellekt sahəsində tədqiqatlar, koqnitiv proseslərin aydın modelini təklif edir. Bu arada neyrofizioloqlar beyinin fiziki təsvirinə diqqəti artırdılar. Növbəti onillikdə beyin və təfəkkür sahəsindəki tədqiqatçılar iki istiqamətdə qruplaşmağa başladılar: 1) koqnitiv elm və ya koqnitiv tədqiqatlar adı altında spekulyativ alt sahədə cəmləşən tədqiqatçılar; 2) neyroelm və ya koqnitiv neyroelm adı altında cəmləşənlər. Bununla belə bütün bu istiqamətlərin səyləri hiss, klassifikasiya, yaddaş, dil və təfəkkür kimi mental proses-

lərin bioloji sistemdən necə əmələ gəldiyini tapmağa yönəlmişdi. Bu tapmacanın bəzi elementləri – məsələn vizual qavrama - müəyyən boşluqları doldurmağa kömək etmiş digər sahələrdə isə inanılmaz sayda tədqiqatlar davam edir. Koqnitiv elmlərin uğurlu və fəal sahələrdən biri kimi tanınmasına baxmayaraq XXI əsrin əvvəllərində alimlər beyinin iş prinsipi barədə hələ az məlumatlı olduqlarını etiraf edirlər. Yaddaş və ya dili kimi əsas insan bacarıqlarını təmin edən mental proseslər haqqında fundamental fikir ayrılığı mövcuddur. [Fahnestock 2005:159]. C.Royer koqnitiv paradiqmanın bəzi üstünlüklərini sübut etməyə çalışır. Müəllif iddia edir ki, bir çox tədqiqatçı və nəzəriyyəçilər biheviorist baxışların yaratdığı məhdudiyyətlərdən bezmişdirlər. Ona görə də inqilab anomal faktlar və rəqabətə girən nəzəriyyələr üzərində qurulmamalıdır. Bununla belə, alimlər koqnitivizmin yeni çətiri altında yeni və maraqlı ideyalar və proqramlar həyata keçirə biləcəklər [Royer 2006:1-2]. Stimulları mənalı kateqoriyalarda qruplaşdırmaq qabiliyyəti fundamental koqnitiv prosesləri şərtləndirir. Onun sinir sistemi ilə bağlı əsaslarını ayırd etmək məqsədilə müəlliflər kompüter tərəfindən törədilən stimulları "pişiklər" və "itlər" kimi təsnifatlandırmaq üçün müəyyən meymunlara təlim keçmişdirlər. Stimul formalarının müntəzəm dəyişməsi və kateqoriya sərhədlərinin dəqiq müəyyənləşdirilməsi üçün transformasiya sistemindən istifadə etmişdirlər. Hətta meymunlar yeni kateqoriyalarla müəyyənləşdirilmiş stimullar vasitəsilə öyrədildiyi zaman lateral ön beyin qabığında əsəblə bağlı fəaliyyət vizual sti-

mullar kateqoriyasını əks etdirir. Koqnitiv neyrobiologiya və ritorika arasında əlaqələri qiymətləndirərkən nəzərə almaq lazımdır ki, onların yanaşmalarında əsaslı fərqlər mövcuddur. İlk olaraq qeyd etmək olar ki, koqnitivist alimlər əsas əqli bacarıqların təsviri üçün ritoriklərdən fərqli terminlər istifadə edirlər. Onlar üçün maraqlı olan hiss, diqqət, kateqorizasiya, öyrənmə ilə bağlı olan neyron substratları üçün mental fəaliyətdə dil heç lazım olmaya da bilər. Doğrudan da, meymunlarda kateqorizasiya ilə bağlı aparılan tədqiqatlar göstərmişdir ki, onların ön beyin qabığının müxtəlif neyronları müxtəlif obrazlara (images/təsvirlərə?) konkret olaraq "ya tam – ya heç" reaksiya nümayiş etdirir. [Freedman 2001:315]. Son tədqiqatlar beyinin funksiyasını qeyri-patoloji aspektdən təhlil etməyə çalışmış, beyini normal, aktivasiya etməklə və yeni vizualizasiya aparatları ilə araşdırmağa çalışmışlar. Bu üsullar beyinin hansı hissədən oksigenlə zəngin qanla təchiz olunduğu (MRT) və ya hansı hissədə radioaktiv idikatorların cəmləşdiyini və konkret tapşırıqların yeinə yetirilməsində beyinin hansı hissələrinin fəallaşdığını aşkar etməyə imkan vermişdir. Beyinə baş verən elektrik və maqnit dalğalarının dəyişmələrini xaricdən ölçmək üçün digər vizualizasiya aparatlarından (EEG və MEG) da istifadə olunur. Beyinin lokalizasiyasını ölçən ən dəqiq metod, ayrı-ayrı neyronlara mikroelektrodlar ötürərək onların elektrik impulslarını ölçməklə əldə olunmuşdur. Lakin belə invaziv metod daha çox heyvanlar, əsasən də meymun və ya pişiklər üzərində aparılır. Beyin üzərində aparılan bu tədqiqat-

lar nəticəsində beyinin fəaliyyət sahələrini əks etdirən beyinin funksional topoqrafik xəritəsini hazırlamaq mümkün olmuşdur. Beyinin funkiyalarını onun fiziki sahələri ilə əlaqələndirmə, son zamanlar neofrenologiya (psixika ilə beyinin quruluşunun əlaqəli olduğunu iddia edən psevdo-elm – müəlliflər) tərəfindən tənqidlə qarşılanmışdır [Bayramova 2019: 92]. Beyinin müxtəlif funksiyaları ilə bağlı müxtəlif zonaların dəqiqləşdirilməsində inkişafın əldə olunmasına baxmayaraq, məlum olur ki, dil fəaliyyəti və qavrama kimi mürəkkəb funksiyaların icrasında beyinin müxtəlif zonaları işə cəlb olunur. Başqa sözlə desək, məsələn xüsusi isimlər üçün beyin qabığının hər hansı konkret sahəsinin işə düşdüyü müəyyənləşdirilsə də (deyək ki, elektrik stimulyasiya ilə həmin sahəni müəyyənləşdirmək mümkün olmuşdur), bu o demək deyil ki, adam xüsusi isimi xatırlayanda yalnız həmin beyin nahiyəsi işə cəlb olunur [Abbasov və Bayramova 2020: 46-47]. Son araşdırmalar onu da müəyyən edir ki, dil tapşırığı nə qədər mürəkkəbdirsə, bir o qədər çox və geniş beyin nahiyəsi fəaliyyətə cəlb olunacaq [Just 1996:114]. M.Dubin qeyd edir ki, sensor (duyğu) sistemləri baş verənlər haqqında biliyin əsasını təşkil edir. Bir neyron digərinə çox oxşayır, amma onların fəaliyyət potensialları eynidir. "Yaşıl və duzlu arasındakı fərqi necə bilə bilərik? Suala cavab vermək üçün duyğu reseptorlarının necə fəaliyyət göstərməsini dərk etməliyik. Hiss olunan hər bir şey sinir sisteminin – fəaliyyət potensiallarının tədavülünə daxil olan fiziki hadisədir.

Bu proses transduksiya adlanır...” [Dubin 2013:23-24]. Görmə ilə bağlı olan yük sək bacarıq digər hisslər içərisində ən çox məlum olandır və digərləri üçün də nümunə rolunda çıxış edir. Vizual stimul özünün ayrı-ayrı komponentləri ilə təhlil olunur: rəngi, forması, intensivliyi, məkanda yeri və hərəkəti ilə [ibid:25]. Gözün tor qişasının sinir hüceyrələrinin siqnalları talamusa (thalamus) və “lateral buğum nüvəsi” adlanan yerə daxil olur və oradan beyin qabığının ilkin görmə zonasına daxil olur. Heyvanlar üzərində aparılan tədqiqatlar bu ilkin görmə qabığındakı neyronların hədsiz həssaslığını üzə çıxarmışdır. Bəziləri o qədər həssasdır (specialized – bayaqdan bu sözü mən bir-neçə variasiyada tərc.etdim, ancaq mətndə specialize termini istifadə olunur həmişə) ki, görmə sahəsindəki obyektin mövqeyindən asılı olaraq fərqli reaksiyalar (məs: atəş sürətində) nümayiş etdirirlər, bəziləri 45 dərəcə, digərləri isə 60 dərəcə dönmə mövqeyinə cavab verir, bəzənsə bu dönmə (rotasiya) dərəcəsi 360 dərəcəyə qədər çata bilir. Nitq eşitmə orqanı ilə bağlıdır və vizual stimullar kimi eşitmə stimulları da yüksəklik, ton, uzunluq, səsin gəldiyi istiqamət kimi tərkib hissələrdən ibarətdir. Müasir vizualizasiya aparatları nitq siqnalları ilə bağlı beyinin bir daha müxtəlif sahələrini ayırd edirlər. Monreal Neyroloji İnstitutunun alimləri Robert Zatorre və əməkdaşlarının tədqiqatları bunu müəyyən etmək üçün tədqiqatları və onun nəticələrini müəyyən etdilər. Zatorre təcrübə zamanı bir qrup insana xahiş olunmuşdur ki, onlar tanıdığı ilk səsi, sonra hecanı, daha sonra eyni fonemlə bitən hecaları və ən sonda isə qo-

şa hecalarda ton fərqini eşidəndə əllərindəki pultun düyməsinə bassınlar. Bu təcrübə zamanı istifadə olunan PET (pozitron emissiyalı tomoqrafiya aparatı) aparatları həmin fərqləndirici xüsusiyyətlərin müəyyənləşdirilməsində beyinin müxtəlif sahələrinin fəaliyyətə cəlb olunduğunu sübut etdi. Beyinin birinci eşitmə qabığı səsi registrasiya etmiş, sağ və sol gicgah qırışığı hecaların "passiv" tanınma prosesinə iştirak etmiş, adətən nitq yaranması ilə əlaqələndirilən beyinin sol yarımkürəsindəki Broka zonası isə "big" və "bag" kimi eyni fonetik sonluq ilə bitən hecaların tapılması ilə bağlı tapşırıq zamanı fəallaşmışdır. Bu da onu göstərir ki, insanlar hecalardakı oxşar sonluqları "artikulyativ raprezentasiya" ("access an articulatory representation") vasitəsilə müəyyənləşdirə bilirlər [Zatorre 1992:846, 848]. Nəhayət səsin yüksəkliyi ilə bağlı fərqləri müəyyən edərkən məlum oldu ki, büyinin sağ yarımkürəsinin digər digər hissələri aktivləşir. Müəlliflər bundan belə nəticəyə gəlir "bizim birgə gəldiyimiz nəticəyə əsasən eşitmə ilə bağlı məlumatlar ayrı-ayrı emal mərhələsindən keçir və onların hər biri ayrı neyronal altsistemlərdən asılıdır" [23, s.848]. Beyinin fəaliyyətinin təsviri ilə aparılan bu tədqiqatlar nəticəsində əldə olunan bölgülər, dilin qavranılmasının təkamül ierarxiyasını üzə çıxarır [Fahnestock 2005:166]. "Emosional kommunikasiyanın verbal aspektləri" əsərində J.Borod, R.Blum və K.Hayvud emosional proseslərin limbik sistemlə və digər subkortikal strukturlarla əlaqəyə girməsini tədqiqata cəlb etmişlər. Son zamanlar neokortikal strukturların emosional proseslərin

komponentləri (məsələn, qavrayış, ifadə) ilə çarpazlaşdırılması diqqəti cəlb edir. Bir çox elmi ədəbiyyatda beyinin sağ yarımkürəciyi emosional prosesləri əks etdirir. Lakin bəzi tədqiqatlar aşkarlayıb ki, sağ yarımkürəcik mənfi, sol yarımkürəcik isə müsbət emosiyalarla səciyyələnir. Bəzi tədqiqatlar isə öyrənmə prosesində hemisferik ixtisaslaşma ilə emosiyanın xüsusi komponentləri arasında qarşılıqlı əlaqələrin olmasını təsdiqləyirlər [Caillies 1998:285]. İnsan dili, müxtəlif uzunluq, tonallıq (yüksəklik) və intensivliyə malik səslərlə ifadənin prosodik formasını müəyyən edir. Məsələn, ingilis dillilər bir ifadənin artan və ya azalan tonda deyilməsinin onun mənasında yaratdığı fərqi bilirlər. Artan tonda demək bir nəqli cümləni sual cümləsinə çevirir, məs: “He has a Phd” və “He has Phd?”. Vurğulu hecaların, qalxan və enən intonasiyanın prosodiyası ilə bağlı sağ yarımkürənin təhlili ifadənin emotiv dəyərinin dekodlaşdırılması ilə bağlı idi. Dilin emosional baxımdan fəaliyyətində sağ beyin yarımkürəsinin rolu ola biləcəyini XX əsrin sonlarında, sol beyin yarımkürəsinin zədə alması nəticəsində nitqinin çox hissəsini itirən xəstələrin hələ də söyüş söyə bilmə qabiliyyətini saxladığını aşkar edən Hughlings Jackson irəli sürdü [ibid:290]. Neyrobioloqlar son iyirmi ildə müxtəlif əməliyyatlar üçün müxtəlif beyin sahələrinin fəaliyyətə cəlb olunduğunu müəyyən etsələr də, onlar həmçinin kəşf etdilər ki, bir yerdə cəmləşən neyron qrupları yüksək bacarıq nümayiş etdirir və yüksək bacarıq tələb edən fəaliyyətlər eyni zamanda müxtəlif beyin nahiyələri tərəfindən idarə olunur. Neyrobioloqların kom-

püter dilində desək, onlar bu prosesi "paralel emal" (parallel processing) adlandırırlar. Lakin beyinin həm sinxron və eyni zamanda da fərqli sahələrinin fəaliyyəti "əlaqə problemini" . Dil emalının böyük hissəsi beyinin sol yarımkürəsinin payına düşür, lakin neyrobioloqlar müəyyən etdilər ki, beyinin sağ yarımkürəsi ifadələrin prosodiyasının müəyyən olunmasında mühüm rola malikdir. Nəyə görə ritoriklər, ən çox da ritorika tarixi ilə maraqlananlar koqnitiv elmə maraq göstərməlidirlər? Koqnitivistlər, şübhəsiz ki, ritorikaya maraq göstərmir, nə də göstəmirdilər. Əlbəttə, Mark Turner kimi (məs: Təfəkkürü oxuyaraq; Biz necə düşünürük) tək-tük cəsarətli alimlərin işlərini çıxmaq şərtilə bu iki istiqamət humanitarelmi dixatomiyanın əks tərəflərini tərənnüm etmişdir. Ritoriklər insanlararası fenomenlər, mürəkkəb qarşılıqlı əlaqələr, tarixi tendensiyalar, kontekstual faktorlar, ideoloji problemlərlə maraqlanmışlar. Onlar ümumiyyətlə, ən azından son zamanlara qədər, hər hansı bir mətn və ya obrazın yaranması və ifadəsində fərdin təfəkküründə gedə biləcək hadisələrlə maraqlanmamışlar. Koqnitivist alimlər isə qrup fəaliyyəti tələb edən və ya persepsiya, yaxud arqumentasiya tələb edən koqnitiv bacarıqlar və funksiyalar ilə maraqlanmamışlar. [Fahnestock 2005:159].

Mahiyyət etibarılə ünsiyyətin reallaşması mesajın konseptuallaşdırılması və kodlaşdırılması ilə əlaqəlidir. Dil və beyin arasında əlaqənin araşdırılması linqvistik fəaliyyətin aydınlaşdırılmasında mühüm rol oynayır.

## KOQNİTİV SEMİOTİKA VƏ SEMANTİKA

Koqnitiv semiotika mənanın analizindən bəhs edən yeni bir elm sahəsidir. O, koqnitiv linqvistikanı və semantikanı struktur və dinamik semiotika ilə birləşdirir. Koqnitiv semiotika həmçinin dil və təfəkkür, jest və mədəniyyət, mətn və diskurs, sənət və simvollaşdırma arasındakı əlaqələri öyrənir.

Koqnitiv semiotika ənənəvi koqnitiv elmlər üçün nəzərdə tutulan yeni denominasiya deyil. Bu iki fənlərarası əlaqə - koqnitiv linqvistika və semiotika – mürəkkəb münasibətləri əhatə edib xüsusi diqqət tələb edir. Koqnitiv semiotikanın ontoloji və metodoloji məsələləri çoxşaxəli yanaşma tələb edir. Linqvistik baxımdan yanaşdıqda koqnitiv semiotikanı semantika və praqmatika ilə əlaqələndirmək mümkündür. Bu yeni istiqamətin koqnitiv semantikanın ideyalarından qaynaqlandığı danılmaz faktdır [Zlatev 2015:1044]. Semantika bir qayda olaraq mənanın öyrənilməsi ilə bağlı elm olub fəlsəfə və məntiqlə əlaqəlidir. Bütün struktur sistemlərin öz semantikasını əks etdirən məna konsepsiyasının olduğu məlumdur [Gregory 2002:1]. Linqvistik təhlilin müxtəlif təhlil səviyyələri mövcuddur. Belə ki, fonologiya səslərin, sintaksis söz kombinasiyalarının və cümlələrin semantika isə mənaların tədqiqi ilə məşğuldur [Saeed 2002:14].

Semiotika adətən işarələri, daha geniş anlamda mənanı öyrənən elm hesab olunur. "Koqnitiv" terminin çoxaspekt-

li tərəflərini nəzərə alaraq Ç.Pirsdən, F.Sössürə, U.Ekodan, Hoffmayerə qədər – bütün semiotik nəzəriyyələri "koqnitiv semiotika" adlandırmaq olar [semioton: 2011]. C.Lakof və M.Consonun (1980) tədqiqatlarından sonra ortaya çıxan bəzi mühüm araşdırmalar - *Düşüncələr və simvollar haqqında: Koqnitiv elmlərin semiotika üçün əhəmiyyəti (1995) əsəri - koqnitiv semiotikanın təməl daşı hesab oluna bilər. 2007-ci ildə ilk dəfə olaraq "Koqnitiv semiotika" jurnalı təsis edildi, 2009-cu ildən etibarən isə Lund Universitetində görkəmli semiotik Göran Sonessonun rəhbərliyi ilə Koqnitiv Semiotika mərkəzi quruldu. Bundan bir-neçə il sonra, yəni 2013-cü ildə Koqnitiv Semiotika üzrə beynəlxalq assosiasiya təsis edilmişdir. D.Çandler Umberto Ekoya istinadən qeyd edir ki: "semiotika sosial həyatın bütün sahələrini əhatə edən elmdir"* [Chandler 2017:276]. Məlumdur ki, Moskva Tartu məktəbinin nümayəndələri semio-kultural fenomenləri qarşılıqlı əlaqədə olan fenomenlər kimi dəyərləndirmişdir. Onlar semiotikaya müxtəlif sistem və funksiyalar arasında əlaqə kimi baxırdılar [Lorusso 2015: s.164]. Dil etnodil təfəkkürün bir hissəsi olduğundan koqnitiv-semioloji tədqiqat zamanı dil daşıyıcısının konseptual təfəkkür forması mühüm rol oynayır. Burada koqnisiya (yəni koqnisiya= təfəkkür+bilik) və semiologiya mühüm rol oynayır.

Biz problemin iki aspektini, dar çərçivədə olan konseptual aspektlə, geniş anlamda olan konseptual aspekti fərqləndirməliyik. Burada komunikasiya nəzəriyyəsi ilə məşğul olan semiotikanı məna haqqında elm olan semiotika-

dan fərqləndirmək lazımdır. Ritorikaya gəldikdə, daha dəqiq desək neoritorikaya gəldikdə son tədqiqatlar bu sahələr arasında əlaqələri təsdiqləyir. R.Yakobson, R.Barts, S.Todorov və başqalarının müəyyən etdiyi struktur semiotika ilə müqayisədə müasir ritorika (ritorik fiqurlar) uzun inkişaf yolu keçərək yeni elm sahələri ilə inteqrasiya etmişlər. Əlbəttə ki, semiotika da yeni nəzəri konsepsiyaları müəyyənləşdirmiş və yeni tədqiqat istiqamətləri almışdır.

Evokativlikyin koqnitiv-semiotik cəhətdən təhlilə cəlb edən Z.Bedanokova onu semiotik formanın yaranma mexanizmi kimi xüsusi interpretasiya tələb edən və məhz bu interpretasiya fəaliyyətində yeni inteqral forma yaratmağa vadar edən koqnitiv fəaliyyət adlandırır. Burada ifadə planı ilə məzmun planı arasında qarşılıqlı dinamik fəaliyyət mühüm rol oynayır. Mənayaratmanın ənənəvi forması "denotativ semiotika" adlanır. Bu zaman 1 ifadə planı və 1 məzmun planı mövcud olur. Əgər həmin planlardan hər birində forma və ya məzmun səviyyəsində "ikiləşmə" (cəmlənmə) baş verirsə bu zaman "konnotativ semiotikadan" və ya "metasemiotikadan" söhbət gedir. Konnotativ semiotika, *ifadə planının formasında* (üslubi formalar, şeirlər və ya proza, funksional üslublar, janr, idiolektlər, emosional ton və s.) dəyişikliklər baş verdikdə qüvvəyə minir. Qeyd edək ki, Bedanakova bu mülahizələrində L.Yelmslevə əsaslanır. L.Yelmslev metasemiotikanı "semiologiyaların semiologiyası" kimi şərh edir: yəni əgər semiologiya dili tədqiq edirsə, metasemiologiya semiologiyanı tədqiq edir. Digər sözlərlə, əgər semantika dil ele-

mentlərinin mənasını tədqiq edirsə, semiotika semiozisin nəticəsi olan işarənin mənasını müəyyən etmək, onun semantik və praqmatik anlamda bütövlükdə tədqiqinə yönəlib. İfadə planının ikiləşməsi məzmun planının assimetriyası ilə əlaqəlidir. İkiqat məna gündəlik dolayı ifadələrlə yaranıb dildə və nitqdə çoxcildli implisit sahəyə çevrilir və kollektiv mental modellər səviyyəsində fəaliyyət göstərir. Qeyd edək ki, semiologiya və semiotika bəzən oxşar anlayışlar kimi başa düşülsə də onlar eynilikdən uzaqdırlar. Əsas fərq ondadır ki, semiotika strukturalist metodologiyaya əsaslanır, semiologiya isə bu doqmaları aradan qaldırmağa çalışır.

Koqnitiv Semiotika Mərkəzi semiotika, linqvistika, koqnitiv elmlər və digər əlaqəli elm sahələrini ümumi meta-teoretik platforma və metodlarda birləşdirir. J.Zlatev qeyd edir: "*Əgər koqnitiv semiotika olmasaydı, biz onu kəşf etməli olardıq. Bizim həyat, idrak, dil və cəmiyyət haqqında biliklərimizi birləşdirən fənlərarası sahə kimi bu sahənin əhəmiyyəti böyükdür. Bundan başqa o müxtəlif elmlər arasında inteqrasiyanı möhkəmləndirə bilər – məsələn linqvistika və psixologiya kimi fərqli aspektdən dil və təfəkkürü bioloji, mental və ictimai-sosial aspektdən öyrənən elmləri birləşdirə bilər*" [Zlatev 2015].

1980-cı illərdən mənanın tədqiqində iki fərqli elm sahəsi - koqnitiv elmlər və struktur semiotika bir-biri ilə kəsişməyə başladı. Bunlardan biri neyro-psixologiya, digəri isə fenomenologiya və estetika ilə sıx bağlı olmuşdur, lakin onların hər ikisi reallıqların insan tərəfindən konseptuali-

zasiyası ilə maraqlanmışdır. P.A.Brandt qeyd edir ki, *"işarəni idrakın biologiyası kimi və ya yüksək "mənəvi" semio-sfera kimi qəbul etmək hətta terminoloji və fəlsəfi nöqteyi nəzərdən bizim klassik metodları birləşdirməyimiz istəyini aradan qaldıra bilər".* Alimin fikrincə koqnitiv semiotika yeni bir məktəb və ya cərəyan deyil, mənanın müasir tədqiqində əsas nəzəri komponentləri birləşdirən və kəsişmələri ən lakonik şəkildə adlandıran mürəkkəb denominasiyadır.

Q.Frege "semiotik" üçbucaq anlayışını dilə gətirmişdir. "Frege üçbucağı" adlanan bu üçbucağın strukturu belədir: işarə-məna-anlam. Burada işarə (yəni *sign*) söz, qrafik obraz, məna (*meaning*) əslində denotat, obyekt və nəhayət anlam (*value*) isə məna, yəni subyektin təsəvvüründəki işarəni ifadə edir. N.Meçkovskaya stoiklərin bəhs etdiyi işarənin üçölçülü məzmunundan bəhs edərkən belə yazır: "*XIX əsrin məşhur alman filosofu, məntiqşünası və riyaziyyatçısı Qotlob Fregenin "denotat-konsept-işarə"ni ayıran və birləşdirən qrafik obrazının və "söz-konsept-əşya" semantik üçbucağına malik "məntiqi üçbucaq" olduğunu görmək çətin deyil"* [Карасев 2014:56]. "*Frege üçbucağı*" universal təzahür olub: 1.maddi daşıyıcı (işarə-vasitə), 2. düşünülən predmetin işarələyəni (obyekt-denotat), 3. həmin predmet haqqında anlayış, sinifikat, konseptdən ibarətdir. Ənənəvi semiologiya söz işarəsinin mahiyyətini bu üçlük daxilində başa düşür. Lakin işarənin bu cür təqdimi ilə ənənəvi dil və nitq əlaqəsi arasında fikir ayrılığının olduğu danılmazdır. Əgər dil, psixofiziki varlıq olan nitqdən

fərqli olaraq ideal varlıq hesab olunursa, demək dil işarəsinin informasiyanın maddi daşıyıcısı kimi başa düşülməsi ona ziddiyyət təşkil edir. Bundan başqa müasir dilçilikdə yalnız dilin işarəviliyi haqqında nəzəriyyə tam olaraq açıqlanmışdır. Bunun əksinə olaraq koqnitiv semiologiyanı təhlil etmək üçün mühüm olan, nitqin semiotikası haqqında məsələlər diqqətdən kənarda qalmışdır.

Qeyd edək ki, Pirsəqədərki dövrü müəyyən mənada "saf semiorika" dövrü hesab etmək olar, lakin onun işarə nəzəriyyəsində müəyyən koqnitiv elementlər də duyulur. Məsələn, M.Qaliano alimin ölümünün yüzillik ildönümünə həsr etdiyi "Pirs və koqnitiv semiotika" adlı məqaləsində bir sıra müasir koqnitiv elm müəlliflərinin fikirləri ilə ayaqlaşan semiotik görüşləri üzə çıxarır. Bunun üçün müəllif qarşısına aşağıdakı məqsədləri qoyur: 1. Pirsin semiotika nəzəriyyəsini koqnitiv tərəfini müəyyən edən məsələləri aşkar etmək; 2. koqnitiv elmin əsasında dayanan məlumatların emalını (human information processing topics) və 3. müasir koqnitiv psixologiyanın yaranması və ətraf mühitlə bağlı stimulların qavranmasını və perseptiv sxemlər konsepsiyasını təhlil etmək [Gagliano 2014:179]. Bu baxımdan alim qeyd edir ki, Pirsin işarə əlaqəsi haqqında semiotik görüşləri ilə koqnitiv reprezentasiya nəzəriyyələri arasında olan əlaqə bu gün koqnitiv-semiotika üçün istinad nöqtəsi sayıla bilər. Əslində Ç.Pirsin semiotik interpretasiya nəzəriyyəsi "idrakın ayrılmaz hissəsi olan" işarə haqqında nəzəriyyə sayıla bilər.

İşarənin bu şəkildə interpretasiyasında təfəkkürün təbiəti ilə bağlı məsələ semiotika ilə, yəni koqnitiv reprezentasiyanı *məlum obyektlə* birləşdirən işarə əlaqəsi nəzəriyyəsi ilə bir müstəvidə nəzərdən keçirilir. Çünki, işarə əlaqəsinin yaradılmasında subyektin tətbiq etdiyi mental əməliyyatlar mühüm rol oynayır. Kartezian fəlsəfi fikirləri ilə tanış olan Ç.Pirs subyektlə bilik obyekti (başqa sözlə desək- koqnitiv reprezentasiya və bilik obyekti – *G.B.*) arasında birbaşa əlaqəni, yəni intuisiya formasını inkar etmişdir. Kartezian fəlsəfəsinə görə empirik biliyin əsasında yəqin və şübhəsiz həqiqətlər dayanır və onlar hisslərdən qaynaqlanmır, çünki hisslər aldadıcı ola bilər. Həmin həqiqətlər hər bir koqnitiv proses üçün başlanğıc rolunda çıxış edir və sübut tələb etmir.

Bu konsepsiyaya qarşı olaraq Ç.Pirs hər bir perseptiv aktın daxili interpretativ xarakteri olduğunu göstərir. Belə ki, o düşünürdü ki, koqnitiv proses daim fəaliyyətdədir və ona sabit başlanğıc nöqtəsi lazım deyil. İntuisiya subyekt və obyekt arasında birbaşa və binar əlaqəyə əsaslanır. Hətta hər kəsin özü haqqında perseptiv reprezentasiyaları, hissiyatlı təəssüratları və ya introspektiv bilikləri intuitiv təsəvvürlər yox, daha çox mental fəaliyyətin və ya sintez prosesinin nəticəsidir. Koqnisiya sonsuz proseslər zənciridir və empirik obyekt burada "ilkin mühərrik" rolunu oynayır [Gagliano 2014:181].

F.Rastier hesab edir ki, Breal "Kondillak məktəbinin ataları"na istinad edərkən Fransada semantik tədqiqatlara təkan vermişdir. Onun fikrincə "linqvistik məna təkcə şey-

lərə istinad və ya konseptlərarası münasibət vasitəsilə yox, həm də dil vahidləri arasındakı fərqlər vasitəsilə qurulur". F.Rastier F.Sössürün "*Əgər dilçilik mütəşəkkil bir elm olsaydı... onun müddəalarından biri belə olardı: işarə ilə bağlı məsələlərin ən mürəkkəbi mütləq sinonimin yaradılmasının qeyri-mümkünlüyüdür*". O, dil vahidlərini – semantik vahidləri – üç prinsiplə əlaqələndirir: "*1). dəyər - dil vahidinin həqiqi gerçəkliyidir; 2). o, dil vahidlərinin sistemdəki mövqeyi ilə ölçülür, 3) sistemin dəyəri* (gerçəklik dəyərini – G.B.) *müəyyənləşdiməsindən əvvəl heç nə mövcud deyil: "əvvəlcədən müəyyən olunmuş ideyalar mövcud deyil, dilin yaranmasından əvvəl heç bir fərq mövcud deyil*" [Rastier 2010:101-102].

Yong-Ho Choi *Sémiotique et sémantique* adlı məqaləsində semantikanı semiotika daxilində və semiotikanı semantika daxilində təhlil etmişdir. Belə ki, semiotikanın son hədəfi semantika, semantikanın son hədəfi isə semiotikada təcəssüm olunur. Müəllif növbəti qənaətlərə gəlir: "*əgər işarələnən işarənin əsas hissəsidirsə və əgər semiotika işarələr haqqında elmdirsə onda bu elmin semantik nəzəriyyəyə ehtiyacı olduğu mütləqdir. Semantika mənalar haqqında elm kimi mənaya hansı ontoloji, epistemoloji və metodoloji statusun verilməli olduğunu müəyyənləşdirməlidir. Bunun üçün işarənin strukturunun müəyyənləşdirilməsi mütləqdir*" [Yong-Ho 2001:75].

*Koqnitiv semiotika bir-çox sahələrdə mənalı strukturların yaranma proseslərini müəyyən edir. Koqnitiv semiotika mənanın yaranma prosesini onun realizasiyasının bü-*

*tün mərhələlərində öyrənir. Məna koqnitiv semiotikanın əsas məqsədidir. Bu baxımdan semiotika və semantika arasında sərhəd çəkmək mümkün deyil. Koqnitiv semiotika mənanın tədqiqi olub "koqnitiv induktiv təfəkkürlə semiotik deduktiv təhlilləri birləşdirir və bu iki yanaşma fenomenologiya və eksperimentalizmin birləşdiyi – koqnitiv semiotika layihəsində gerçəkləşir"* [Cronquist 2007:21]. Bizim fikrimizcə, koqnitiv semiotika və semantikanın əsas məqsədi praqmatik təfəkkürün müəyyənləşdirilməsinə yönəlib. Praqmatik təfəkkür koqnitiv semiotika və semantikanın kəsişmə nöqtəsidir [Abbasov və Bayramova 2019].

Koqnitiv semiotikada hələ bir çox semio-koqnitiv fenomenlər vardır ki, onlar öz sistematik izahını, tədqiqini tapmamışdır. Məs: insan nəzəri və ya intersubyektiv, deiktik və affektiv göz kontaktı, həmçinin intersubyektiv toxunuş və s. Semiotik təhlilərdə mentalizmdən yayınmaq cəhdləri çox güclü olmuşdur. Biz mental prosesləri birbaşa görə bilmədiyimizdən, bu proseslər haqqında davranışlardan nəticə çıxara bilərik, lakin belə nəticələr nadir hallarda həmin məlumatların özü ilə müəyyən olunur. Semiotika daxilində koqnitiv yanaşmalara müraciət, yəni dilə semio-koqnitiv yanaşma heç də qeyri-semiotikliyə dəlalət etmir. Nəticədə, koqnitiv əsasa malik olmayan semiotika haqqında elm və semiotik perspektivə malik olmayan koqnitiv elm – idrak, işarə və mənanın tam öyrənilməsi üçün lazım olan – bir bütövün çatışmayan hissələridir.

# KOQNİTİV SEMİOTİKA MƏNANIN ÇOXASPEKTLİ TƏHLİLİ KİMİ

Koqnitiv semiotika mənanın çoxaspektli fenomen kimi təhlili ilə bağlı metodları əks etdirən elmlərarası fənn və ya yeni bir sahə olub koqnitiv metod və nəzəriyyələri semiotik tədqiqatlarla birləşdirir. Bu mənada koqnitiv semiotika mənanın manifestasiyasının dərk olunmasının yeni metodlarını təqdim edir.

Klassik semiotika, özünün ilk nümayəndəsi F.Sössürlə əsasən mənanın yaranması ilə bağlı məsələlərlə maraqlanmışdır. Burada insan cəmiyyətində istifadə olunan mətn, obraz, simvolik sistem, kütləvi informasiya sistemləri və bədii vasitələr, rəqəmsal kommunikasiya və s. nəzərə alınsa da onun koqnitiv quruluşu diqqətdən kənarda qalmışdır. Ç.Pirsdən başlayaraq semiotika artıq işarəyə təkcə ifadə və məzmun (işarələyən və işarələnən) kimi və sosial kommunikasiya kimi yox, həm də şeylər arasında məntiqi əlaqə kimi nəzərdən keçirilirdi. Bu fikirlər məntiqin bəşər varlığına xas olması ilə bağlı fikirlərin genişlənməsində təzahür tapmışdır. U.Ekonun bəzi fikirlərində də insan təfəkkürünün semiotik formalarının tarixi istifadəsini müşahidə etmək olar. Lakin Pirsin fikirləri ziddiyyətdən də yan keçmir. Belə ki, bəzən onun mövqeyində koqnitiv yanaşmalara zidd fikirlər, bəzənsə, xüsusilə də erkən yazılarında koqnitivist görüşlərə yaxın fikirlər səslənir.

Özünün *Koqnitiv semiotika* adlı məqaləsində J.Zlazev qeyd edir ki, koqnitiv semiotikanın əsl yaranma tarixini Tomas Daddesionun *Düşüncələr və simvollar haqqında: Koqnitiv elmlərin semiotika üçün əhəmiyyəti* əsəri ilə 1990-cı illərin ortalarından hesab etmək lazımdır. P.A.Brandt isə koqnitiv semiotikanın yaranma tarixini 1980-cı illərə aid edir. O qeyd edir: "*Koqnitivist alimlər Fiziki Simvol Sistemi ilə məşğul olduqlarını bəyan edirlərsə, onlar sadəcə buna semiotika yox koqnitiv elm adı qoymaqla fərqlənirlər. Xoşbəxtlikdən, fenomenoloji nöqteyi nəzərdən koqnisiya yalnız məntiqi və simvolik struktura malik deyil... Holenştayn bəlkə də ilk alimdir ki, "koqnitiv-semiotika" adlanmasını təklif etmişdir.*" [Brandt 2004:253]. Aliferinko isə öz növbəsində Koqnitiv-semioloji ideyaların başlanmasının ilkin mərhələsini sensualistlərin, və ilk növbədə Kondilyakın mülahizələri ilə bağlayır. Kondilyakın protometaforanı insanın dil təfəkkürünün ən vacib hissəsi hesab etməsini alim semio-koqnitiv yanaşma ilə əlaqələndirir [Алефиренко 2007].

Koqnitiv proseslərin öyrənilməsi insanın ətraf mühitdən informasiyanı çıxarma və emal etmə bacarığı, onu yadda saxlayıb digərlərinə ötürməsi və bununla da dünyanın koqnitiv reprezentasiyasını yaratmaqla əlaqədardır. İnsani informasiyaların emalı üzərində təmərküzləşən bu düşüncələr ilk koqnitiv elmi tədqiqatlara gətirib çıxarmışdır. Belə ki, informasiya anlayışı insan koqnisiyasının qavranılmasını araşdıran psixologiyada, informasiya emalının

süni sistemlərini proqramlaşdıran kibernetikada tədqiqatlara səbəb olmuşdur.

Dieqo Markoni belə hesab edir ki, koqnitiv elm psixologiya, linqvistika, kibernetika, fəlsəfə və antropologiya kimi elmlərin çarpazlaşmasından yaranmışdır [Marconi 2008:183].

Dilin koqnitiv-semiotik xüsusiyyəti yalnız müqayisə və təkamül müxanizmlərinin nəzərə alınması ilə dərk oluna bilər. Koqnitiv semiotika bu baxımdan bütün müvafiq elmləri əhatə edir. Onu nə semiotikanın bir hissəsi və ya sahəsi kimi, nə də hansısa konkret cərəyanın davamı və ya qolu kimi nəzərdən keçirmək olmaz. Bəzən koqnitiv semiotikanı semiotikanın sahələri və ya formaları olan biosemiotika, sosial semiotika, tekstual semiotika, vizual semiotika ilə qarışdırmışlar. Bəzənsə koqnitiv semiotika müəllifləri öz araşdırmalarına bu adı (koqnitiv semiotika- nominasiyasını) verməkdən yayınmışlar [Daddesio 2013]. Qeyd etmək lazımdır ki, koqnitiv semiotikanı ənənəvi koqnitiv elmin yeni və müasir denominasiyası kimi şərh etmək də düzgün deyil. Bu iki elm - koqnitiv elm və semiotika- arasındakı əlaqə mürəkkəb əsasa malikdir və bu sahədə tədqiqatlar hələ yeni baş qaldırır [semioticon 2011].

T.Daddesio qeyd edirdi ki, işarələrin koqnitiv nəzəriyyəsini qurmaq cəhdlərinin qarşısında duran ən böyük maneə, müasir semiotikanın əsasını təşkil edən mental vahidlərə düzgün yanaşmanın qurulmamasıdır. Həmçinin ötən 25 il ərzində fəlsəfə və sosial elmlərdə, antimentalist fər-

ziyyələr sərt tənqidlərə məruz qalsa da, belə bir tendensiya semiotikada izlənilməmişdir. Semiozisə koqnitiv yanaşmaqla işarənin koqnitiv nəzəriyyəsini qurmaq mümkündür [Daddesio 2013:17]. Əslində fiqurlara semio-koqnitiv yanaşma semiotika və koqnitiv semantika arasındakı maneəni aradan qaldırmaq üçün mühüm addım hesab edilə bilər.

XX əsrdə işarə, semiozis, məna kimi anlayışların "dementalizasiya" edilməsi cəhdləri semiotikanı koqnitiv elmdən ayırmağa gətirib çıxarmışdır. Koqnitiv elmdə "hesablama" və "məlumatların hazırlanması" kimi məsələlər əsas anlayışlara çevrilsə də semiozisə koqnitiv yanaşma məsələsinə əhəmiyyət verilməmişdir. T.Daddesio özünün koqnitiv-semiotik sintez nəzəriyyəsində əsasən sxematizasiya, diqqət, metafora və interpretasiya kimi anlayışlarla əlaqəsi olan koqnitiv semantika və təkamül psixologiyasına əsaslanmışdır. Zlazevin fikrincə Daddesionun bu sahədə olan xidmətləri bu günə kimi layiqincə qiymətləndirilməmişdir. Onun uşaqlarda semiotik inkişafla bağlı fikirləri xüsusi əhəmiyyət kəsb edir [Zlatev 2015:1053].

Lakin bununla belə bir çox semiotik tədqiqatlarda antimentalist yanaşmalar yenə də davam etmiş və bir çox hallarda mental zeprezentasiya və təsəvvürlər "ictimai baxımdan nəzarət oluna bilməyən" təzahürlər kimi semiotiklərin diqqətində kənarda qalmışlar. Semiotikada izlənilən əsas tendensiyaya görə maddi olmayan mental təzahürləri hətta dəqiqliklə tədqiq etdikdə belə onlar işarənin özündən daha çox məlumat verə bilməzdi. Bu baxımdan bir çox semio-

tiklər işarəyə koqnitiv yanaşmanı nəinki lazımsız, hətta təhlükəli hesab etmişlər.

Semiotika semiozisi, yəni işarələrin insan və heyvan aləmində fəaliyyətini öyrənir. Koqnitiv elm isə koqnisiya, yəni insan və ya heyvanlarda individual və ya kollektiv şəkildə dünyanı dərk, konseptualizasiya və interpretasiya etməyi təhlil edir. O insan təkamülündə düşüncə bacarığını, onun psixoloji inkişafını müəyyən etməklə məşğuldur. Ontoloji baxımdan idrak və beyin, işarənin məzmununu formalaşdıran və onu dərk etməyə imkan verən mənanın varlığında mühüm rol oynayır. İnsan təfəkkürünün inkişaf etməsinin şərti olan dil məna komponentindən ibarətdir və bu məna komponentinin mövcudluğunun əsas şərti də ontoloji əsasa söykənir [Bayramova 2019]. Sebeok və M. Danesi *The forms of meaning: modeling systems, theory and semiotics* (2000) kitabında insan evolyusiyasında modelyasiyanın rolunu  təhlil edirlər. Qeyd edək ki, semiotikada modelyasiya (modelling) termini əsasən Moskva-Tartu məktəbinin adı ilə bağlıdır. Sebeok bu termini biosemiotikaya və qlobal semiotikaya aid edirdi. Onun fikrincə modelyasiya həyatın bütün formalarında müşahidə edilir. Müasir biosemiotika təsbit edir ki, bütün canlı aləm spesifik-növ aləmində mövcudiyyət təşkil edir. Sebeok sübut edir ki, xüsusi modelyasiya ilə yadılmış canlı varlıq olmadan nə ünsiyyət, nə məna yoxdur. Məna və ünsiyyət dünyanın formalaşmasının və modelləşməsinin yalnız sonrakı (posterior) təzahürüdür. İstər Tartu məktəbinin nümayəndələri, istərsə də Sebeok dili ilk modelyasiya sistemi hesab

edirdilər. Onlar modelyasiya terminini ilk olaraq dilə, daha sonra isə mədəniyyətə aid edirdilər. Hər bir canlı formanın özünün *xarici aləmi* var və o hər hansı bir model daxilində mövcudiyyət sürür. Yəni hər bir canlı varlıq öz modelyasiya mexanizmi daxilində işarə sisteminə malikdir. Burada həyat=işarə kimi anlaşıla bilər (*G.B.*). Dil insana məxsus modelyasiya sistemidir. Dilsiz canlılar da bir-biri ilə ünsiyyət yarada bilir və bununla zoosemiotika məşğul olur. Lakin istər zoosemiotika, istər onun bir hissəsi olan antroposemiotika bütövlükdə biosemiotikanın bir hissəsini təşkil edirlər. Biosemiotika hüceyrələrdən bakteriyalara kimi bütün həyat işarəsi olan işarələri, orqanizmin daxili işarə sistemlərini, genetik kodunu, sinir sistemini, immun sistemini və s. özündə birləşdirir. C.Prodi də mənanın maddi tərəfini araşdırmağa çalışarkən işarənin və semiozisin biologiyasını təhlil etmişdir. O mənalandırmanın üst qatının təşkilində maddi məntiqə söykənən bioloji proseslərin dayandığını araşdırır [Prodi 1977].

Məna istənilən vəziyyət və ya kontekstdə kateqoriyaların sxematizasiyası yolu ilə konseptual şəkildə təşkil olunandır. Yəni o, məkanda və zamanda mövcud olan obyekt və hadisələr kateqoriyasına relyasion sxemlər tətbiq edir. Biz hər hansı obyekt, hadisə, haqqında düşünərək onun hissələrini inteqrasiya etmək üçün fikrimizdə həmin sxemləri fəallaşdırırıq. Biz təcrübəni təsəvvürümüzdə canlandırır, əgər təsəvvür edə biliriksə onu yadda saxlayırıq, yəni təsəvvürümüzdə onun narrativ quruluşunu canlandırırıq. P.A.Brandt qeyd edir ki, “*idrak öz quruluşuna görə ədəbi*

*agens təsiri bağışlayır. Burada işarə özü semiotik və koqnitiv* (başqa sözlə, semio-koqnitiv!- *G.B.*) *məntiqə malikdir və bu məntiq tarixi və dəyişən manifestasiyalara əsaslanır. Dinamik sxemlər bu və ya digər dərəcədə bədən hərəkəti, maddi təfəkkür və həmçinin kateqorizasiyadan, sensorial qavramanın geştalt fəaliyyətindən irəli gəlir*" [Brandt 2018].

Ənənəvi olaraq semiotika əsasən işarə modeli ilə əlaqəli təfsir elmi (hermenevtika) kimi köməkçi sahə hesab olunmuşdur. Lakin bu gün semiotika mənanı təkcə şüurlu fenomen kimi dərketmə, emosiya və davranış, və ya neyrofizioloji proseslərə bağlı şəkildə deyil, ayrılıqda mənaya, digər mənalı ideyalara bağlı müstəqil referensial mexanizm kimi öyrənir.

Məna mental proseslər vasitəsilə, insan təfəkküründə olan kontentlərin daxili əlaqəsi sayəsində, müstəqil sahə kimi tənzimlənir. Mental kontentlər arasındakı əlaqələr ümumi və ya universal sxematik prinsiplərlə yarana bilər. Belə əlaqələr metaforik anlayışlarla, mental məkanla, obrazlı və dinamik sxemlərlə, kateqoriyalar və semantik sahələrlə formalaşan daxili şəbəkə yaradır. Bizim təfəkkürümüz bizim reaksiyalarımız, inanclarımız, davranışlarımız və s.ni müəyyənləşdirməzdən öncə bu əlaqələri tapır, emal edir, qiymətləndirir. Bu prinsipləri müəyyənləşdirmək, təsnif etmək, öyrənmək və xüsusən də anlamaq hələ də mürəkkəb məsələ olaraq qalır. Lakin koqnitiv semantika və dinamik semiotika artıq bu istiqamətdə məsələlərin qaldırılmasına çalışır. Nəticədə koqnitiv semiotika nişanı al-

tında ümumi bir layihədə axtarışlar davam edir [Brandt 2004:263].

Koqnitiv semiotikanın əsas vəzifəsi mənanı və mental konnektorlarla yaranan semiotik əlaqələri öyrənməkdir. Koqnitiv prosesin semio-semantik formada öyrənilməsi təkcə kommunikasiya və mədəniyyəti yox, həmçinin insan düşüncələri və hisslərini başa düşülməsində mühüm rol oynayır. Əgər mədəniyyət və mədəni fərqlər təbii fenomendirsə və o fərdin konsept yaratma, onu ötürmə və başqalarından öyrənmə bacarığına əsaslanırsa, onda biz təcili olaraq intersubyektiv davranışda (qarşılıqlı fəaliyyət, xidmət, məlumat və s. mübadiləsi) və "*saf dialoqda*" (pure dialogue) "*ümumi təfəkkür*" fenomenini öyrənməliyik. Dil semio-genetik prosesin əsas şərti deyil, çünki o insan növünün və ya digər növlərin təkamülünün nəticəsi də ola bilər. Verbal dil, yəni ümumilikdə məna, onun qrammatik təşkili, fonetik ifadə forması da daxil olmaqla, eşitmə simvolizasiyasının formasıdır. Dil digər simvolizasiya və təfəkkür formalarından *sonsuz sayda translyasiyalara uğraya bilən semiotik vasitə* kimi inkişaf edir [ibid:265].

Z.Popova qeyd edir ki, koqnitiv linqvistikanın qarşısında duran semiotik məsələlərdən biri də dil işarələrinin tipologiyası problemidir. Pirsin ikonik, indeksal və simvolik işarə anlayışlarına əsasən leksemlər səstəqlidinə görə ikonik, fizioloji hiss və ya ifadə edən nidalar olmaqla indeksal və ya motivləşmiş və motivləşməmiş olaraq simvolik leksemlər kimi fərqləndirilə bilər. Məs: *şırıldamaq, guruldamaq, uğultu* və s. kimi sözlər – ikonik; *ay, oy, ax* və

s. kimi nidalar – indeksal; *"göyəm", "istiot", "ətirşah"* kimi motivləşmiş və *"sarı", "qırmızı", "alçaq", "güclü"* kimi motivləşməmiş sözlər – simvolik olur. Z.Popova ikonik – indeksal leksemlərlə simvol-leksemlər arasındakı referent münasibətləri təhlil edir və konsept-denotat münasibətlərinə xüsusi semiotik yanaşmanın əhəmiyyətini vurğulayır [Попова 2006:50].

J.Zlatev "semiotik iyerarxiya" nəzəriyyəsində mənanın qurulmasının dörd səviyyəni müəyyən edir: həyat, təfəkkür, işarə funksiyası və dil. Burada hər səviyyə digəri üzərində gəlir və sonrakı səviyyənin yaranmasına imkan verir. Bu cür interpretasiya fenomenologiya, ontologiya, semiotika, dilçilik, koqnitiv elm və təkamül biologiyası kimi sahələrin təsiri ilə yaranmış və koqnitiv-semiotika şəklində təcəssüm tapmışdır. Digər sözlərlə Zlatev bu qənaətə gəlir ki, şüur həyatı xarakterizə edir, işarədən istifadə isə şüurluluğa dəlalət edir, dil isə işarə funksiyasını nəzərdə tutur və beləcə iyerarxik zəncir yaranmış olur. Bu zəncirdə əksinə istiqamət qeyri-mümkündür [Zlatev 2009:169]. Lakin *"insan təfəkkürü onun işarə vərdişləri və dilindən asılıdır"* deməklə alim özü bu biristiqamətliliyin mütləqliyini sonradan şübhə altına qoymuşdur [Zlatev2014]. İnsan "semiotika" bacarığına malik, yəni semiozis haqqında düşünə bilən yeganə heyvandır. Bu baxımdan semiotika *"öz gündəlik davranışları və koqnitiv fəaliyyəti haqqında mühakimə edə bilən insan beyninin universal tendensiyası sayıla bilər. C.Lok bunu "insanı dərk", Ç.Pirs isə "fantaziya oyunu" adlandırır"*[Danesi 2001:11].

İnsan təfəkkürünə məntiqi və simvolik reprezentasiyalardan başqa həmçinin digər semiotik konseptlərlə, məsələn, ikoniklik (obrazlara xas) və indeksallıq (dinamik sxemlərə xas) kimi formalarla yanaşmaq da lazımdır.

Məlumdur ki, eyni bir konsept-denotat bir-sıra leksemlə ifadə oluna bilər. Bunun bariz nümunəsi dildə olan sinonimiya, hiperonimiya, hiponimiya hallarıdır. Həmin leksemlər bir-birini tamamlayan sememləri əks etdirir. Hər bir semem konseptlə müəyyən əlaqəyə malikdir. Abstrakt sememlə konsept arasında olan əlaqə indeksal hesab oluna bilər. Konseptlə prototipik obrazlar yaradan sememlər isə ikonik əlaqə ilə xarakterizə olunur (məs: köhnəlmiş (ayaqqab), çirklənmiş (paltar), hamar (səth) və s.). Simvolik əlaqədə isə sememin denotatla olan əlaqəsi hər hansı bir əlamət və ya obrazı reprezentasiya etmir və sırf konnotativ xarakter daşıyır. Ümumilikdə semem və denotat arasında semiotik münasibətlərin müəyyənləşməsi maraq doğurur. Linqvosemiotik sxem həm də leksemlərin nominasiyasının yaranmasını müəyyənləşdirir. İnsan hər hansı bir yeni məna tapanda onun müvafiq adlanmasını tapmağa çalışır. Nominasiya qazanmış məna denotat statusuna keçir və bu prosesin öyrənilməsi insanın koqnitiv fəaliyyətinin yeni tərəflərini üzə çıxara bilər. Bu baxımdan semiotika koqnitiv dilçiliyin inkişafına yeni impulslar verir [Попова 2006:51; Bayramova 2019]. Deməli, mənanın çoxaspektli təhlilində koqnitiv semiotikanın rolu əvəzsizdir.

# TOMAS C. DADDESİONUN SEMİOTİK GÖRÜŞLƏRİ

Tomas Daddesionun idrak və simvollar barəsində maraqlı mülahizələri müasir dilçiliyin nailiyyətlərindən sayıla bilər. Semiotikanın və ümumən, idrakla iç-içə olan koqnitiv semiotikanın mahiyyətinin anlaşılmasında onun fərziyyələrinin önəmi vardır. Xəyali olaraq uzaq qalaktikada *Epistemiya* adlı planetin mövcudluğundan bəhs edən müəllif bu planetdə texnoloji cəhətdən inkişaf etmiş sivilizasiyanın olduğunu qeyd edir. Həmin planetdə bütün fəaliyyətlər biliyə yönəlib. Maddi istehsal məqsəd  üçün yox, hər bir epistemiyalının elmi inkişafını təmin etmək üçündür. Bəşər qanunlarını öyrənməklə yanaşı epistemiyalıların bəzisi digər elmləri və fərqli sivilizasiyaların düşüncə tərzini tədqiq etməlidir. Onların məqsədi kəşf deyil, sırf yeni inanc formalarını bilmək istəyindən irəli gəlir. Buna görə də, bir qrup epistemiyalı insan irqindən olanların intellektini tədqiq etmək üçün Yer planetinə göndərilir. Tədqiqat qrupuna Yerdə aparacaqları tədqiqat sahəsi haqqında təməl məlumatlar verilir. Məsələn, semiotika ilə bağlı olaraq epistemiyalı bilməlidir ki, bu sahə işarələrin sistematik tədqiqi ilə məşğuldur. İlkin məlumata malik epistemiyalı öyrənəcəyi sahənin nə olduğunu təxmin etməyə çalışır. O düşünür ki, semiotiklər müxtəlif işarə növləri ilə maraqlanırlar və hesab edir ki, semiotika müxtəlif işarələri (real və virtual) iki müxtəlif nəzər nöqtəsi baxımından təhlil edir. Bun-

lardan biri işarələrin müxtəlif komponentləri arasında olan əlaqələrin müəyyənləşdirilməsidir. İkincisi isə semiozisə cəlb olunan orqanizmlərin bu məsələdəki bacarıqlarının növünü müəyyən edir. Yer kürəsinə gələn epistemiyalı burada olan tanınmış semiotiklərlə söhbətdən dərhal anlayır ki, onun təxminlərində yanlışlıq var: təxminlərindən birincisi geniş yayılsa da, ikincisi, ümumiyyətlə, mövcud deyil. Ona (hipotetik epistemiyalıya – *G.B.*) məlum olur ki, Yer kürəsində olan semioloqlar əsas etibarıılə işarə, obyekt, interpretant və bu kimi terminoloji anlayışlarla maraqlanmışlar. Əvvəlki fikirlərini dəyişməyə məcbur qalan epistemiyalı semiotiklərdən işarədən istifadə etdikləri zaman hər hansı məlumatı kodlaşdırmaq və dekodlaşdırmaq üçün bacarıqları təhlil etməyi necə öyrəndiklərini soruşur, lakin cavab o qənaətbəxş cavab ala bilmir, çünki semiotiklər ya semiotikanın təbii olmasını səciyyələndirən Okkam bıçağı üsuluna (reduksionist tipli – *G.B.*), ya da *işarə işarə kimi qurulur* şəklində olan fikirlərə yönələrək məzmunu dəyişdirirlər. Epistemiyalının məqsədi Yerdəki gedişatı dəyişmək deyil, yalnız müşahidələr aparmaq olduğundan o öz fikrini müəyyən etmədən Yeri tərk edir.

Daddesionun uydurduğu elmi fiksiyanın çatdırmaq istədiyi əsas fikir ondan ibarətdir ki, koqnitiv yanaşmalara müraciət heç də qeyri-semiotikliyə dəlalət etmir, yəni koqnisiya semiozislə əlaqədardır. Müəllif xəyalən yaratdığı epistemiyalının rast gəldiyi semiotika haqqında bilikləri "saf semiotika" adlandırır. O, işarənin koqnitiv təhlilinə qarşı müqaviməti, əslində, onun əlaqəli olduğu bütün di-

gər proseslərə qarşı müqavimətin bir tərəfi kimi qiymətləndirir. Daddesionun özünün də etiraf etdiyi kimi, onun semiozisə koqnitiv yanaşma cəhdi ilk öncə təmiz semiotika mövqeyinin nəzəri əsaslarını sual altında qoyur. Müəllif çox haqlı olaraq qeyri-semiotik fenomenlərin tamamilə istisna edilməsi ilə razılaşmır, yəni onun qənaətinə görə, "saf" semiotikanın olması iddiaları ciddi səhvlərə yol açır [Daddesio 2013:18-19]. Həqiqətən də, bu gün koqnitiv elmin nailiyyətlərini semiotikasız təsəvvür etmək mümkün deyil. Antroposentrik mövqedən çıxış ediriksə, tam cəsarətlə deyə bilərik ki, idraka söykənməyən semiotika mövcud ola bilməz.

İşarə vasitəsinin nə demək olduğunu aydınlaşdırmaq istəyən Daddesio Pirsin yanaşmasından fərqli bir görüş ortaya qoyur. Onun nəzərdə tutduğu vasitə növü işarənin özünün digər obyektlər və proseslərlə vasitəçilik etməsini ehtiva edir. Vasitə (mediation) deyəndə, o, işarəyə yardım edən və ya ümumiyyətlə, ona məna qazandıran prosesləri nəzərdə tutur. Daddesio yazır: "*Biz semiozisin ictimai-mədəni vasitəçiliyini qəbul etməliyik, çünki, o özündə elə prosesləri əks etdiri ki, onların vasitəsilə sosial qurumlar və mədəni sistemlər işarənin fəaliyyətini və inkişafını formalaşdırır*" [ibid:19].

Müəllifin mülahizələrinə görə işarələri təsnif və tədqiq etmək üçün hazırlanan bir sıra konsepsiyalar həmin işarələrə vasitə olan proseslərin təbiəti haqqında təsəvvürlərimizdən asılı deyil. Bu prinsipi nəzərə alaraq, işarənin özündən başqa, nəyisə təcəssüm etdirdiyini göstərən fərqli

işarə nəzəriyyəsi təklif etmək olar. Məsələn, işarəni neyron alışmanın nəticəsi kimi götürdükdə onu fiziki anlamda şərh etmək və ya onun əsl mahiyyətini qeyri-maddi hesab edərək sırf intuitiv anlamda önə sürmək olar. Daddesionun saf semiotikaya etirazı onun semiotik təhlillərinə təsir etmir. Bu cür yanaşmaya nümunə olaraq o, Morrisin "İşarə nəzəriyyəsinin əsasları"ndakı  fikirlərə istinad edərək göstərir ki, semiozisin funksiyasını, işarənin kodlaşma və dekodlaşma mexanizmini öyrənmədən də işarə nəzəriyyəsini formalaşdırmaq mümkündür. Alim vurğulayır ki, məntiqi cəhətdən sərbəst işarə nəzəriyyəsi qurmaq mümkündürsə, onda işarənin vasitə rolunu təhlil etməyin mənası qalmır və o, yalnız daxili struktur baxımından semiotik təhlilə cəlb oluna bilər [ibid:19-21].

Məsələ burasındadır ki, semiotik araşdırmalar daha çox işarə üzərində təmərküzləşmişdir, lakin bu prinsip semiozisin hansı tərəflərinin semiotikanın sahəsi olduğunu müəyyən etməyə imkan vermir. "Saf semiotika" noqteyi-nəzərindən yanaşma semiotikanın çərçivəsini daraldaraq onu işarənin elementləri ilə məhdudlaşdırır və onun digər elmlərlə əlaqəsini istisna edir. Əvvəlki semiotika haqqında təhlillər sırf işarə nəzəriyyəsi və işarənin xüsusiyyətləri üzərində qurulmuşdur. Hazırda müasir semiotik araşdırmalar nəticəsində "saf semiotika" tərəfdarları nəhayət ki, müvafiq işarə nəzəriyyəsinin qurulacağına inanırlar. Daddesio işarənin vasitə rolunda çıxış etməsi ilə bağlı proseslərin yalnız semiotikaya aid edilməsini geriyə addım kimi qiymətləndirir. "*....Əvvəla, işarə nəzəriyyəsinin  semiozisə*

*səbəb olan proseslər haqqında fikirlərimizdən asılı olmayaraq yaranması ideyası müasir elmi yanaşma ilə ziddiyyət təşkil edir. Semiozisə təsir edən prosesləri kənarlaşdırmaq işarənin ötürülməsi ilə bağlı fərqli və əsaslandırılmamış mövqelər olduğundan bu sahədə fikir ayrılıqları mövcuddur*" [ibid:23]. Daddesio qeyri-semiotik vahidləri nəzərə almadan işarəni təhlil etməyin düzgün olmadığı qənaətindədir. O,  işarənin daxili strukturu ilə yanaşı xarici faktorların da nəzərə alınmasını semiotiklər üçün vacib hesab edir. Bu mövqe işarənin sosial-mədəni mediasiya olmasını qəbul edir. Lakin mədəniyyətlə bağlı kodlar davranış və artefaktlardan əldə oluna bilir, bu isə mental proseslərdə özünü göstərir. "Mədəniyyət kodları" anlayışını vacib sayan Daddesio onları həm də mental proseslərə müncər edir. İstənilən halda saf semiotikanın sərhədləri aşılmalıdır.

Saf semiotika ilə bağlı məsələni Daddesio semiotiklərin cəhdlərinin boşa çıxması kimi dəyərləndirir. O, irəli sürdüyü müddəaları əsaslandırmaq üçün təfəkkürdən asılı olmayan müstəqil semiotika nəzəriyyəsinin qurulmasının mürəkkəb olduğunu göstərən işlərdən birinə – Maks Fişin "Pirsin işarə nəzəriyyəsi nə dərəcədə əhatəlidir?" (*Just how general of Pierce's theory of signs)* adlı tədqiqatına müraciət edir. Fiş dəniz heyvanlarının qalıqlarının paleontoloq üçün dənizin səviyyəsini müəyyən etmək üçün işarə rolu oynadığını qeyd edir. Belə qalıqların yalnız az bir hissəsinin kəşf olunmasına baxmayaraq, onların hamısı işarə rolunda çıxış edə bilər. Qalıqlar müəyyən məna ifadə et-

mək üçün bütün xüsusiyyətlərə malikdirlər və "*onların işarə olması üçün interpretanta ehtiyac yoxdur*". Daddesio mental prosesləri nəzərə almayan Fişin təhlilləri ilə nəinki razılaşmır, hətta onun fikirlərini alt-üst edir Fişin işarəni dekodlaşdıran insanın koqnitiv prosesləri ilə bağlı heç bir açıqlama verməməsi, qalıqları işarə kimi interpretasiya etməsi Daddesionu qane etmir, çünki bu, sadəcə "ideal interpretant" modeli əks etdirir. "*Dəniz heyvanlarının qalıqlarının milyon il əvvəl dənizin səviyyəsindən xəbər vermək üçün siqnal rolunda çıxış etməsini iddia etmək üçün, semiotik (semiotik-alim – G.B.) qəbul etməlidir ki, bu qalıqdan bu məlumatı almaq üçün xüsusi biliyə malik interpretant mövcuddur. Hətta daha da dəqiqləşdirərək demək olar ki, həmin interpretant təkcə bu haqda ümumi biliklərə malik olmalı deyil, həm də konkret simvolik kod sistemində olan biliklər məcmusu (daşlaşmış heyvan qalığı və geoloji zaman əlaqəsi) haqda dərin biliklərə malik olmalıdır. Demək, Fiş də öz nəzəriyyəsində mental prosesləri nəzərə almamışdır*" [ibid:24-25].

*Semiotika və linqvistika* (1980) əsərinin müəllifi Jozef Ransdeldən iqtibas edən Daddesio işarələrin interpretasiyasından asılı olmayaraq innativ gücə malik olması fikrinin qarşısında dayanan bir-sıra səbəblər olduğunu deyir. Əgər obyektlər və ya hadisələr yalnız semiozisdə iştirak etdiyi zaman işarə hesab olunursa, yəni onlar hər hansı başqa bir şeyi ifadə etdikdə işarə sayılırsa, onda onların semiotik gücü iştirak etdikləri konkret semiotik aktın funksiyasından asılıdır. "*Bəs bir işarənin semiotik gücünü*

*onun interpretasiyası olmadan necə müəyyən edə bilərik, yaxud işarənin semiotik gücünü, onun zamanla qazana biləcəyi sonsuz interpretasiya diapazonunu necə müəyyən etmək olar? Fişin nümunəsinə qayıdaraq demək olarmı ki, bizim heyvan qalıqları haqqında hazırki biliklərimiz onun semiotik potensialını məhdudlaşdırır?"* [ibid:26]. Daddesio hesab edir ki, konkret işarələrin mənaları qismən onları interpretasiya edən orqnizmlərin koqnitiv proseslərindən asılıdır və hər hansı bir işarə adi insan, təcrübəli paleontoloq və ya koqnitiv cəhətdən inkişaf etmiş yadplanetli üçün fərqli şey ifadə edə bilər. O, Fişin fikirlərini təhlil edərək işarənin məna gücünün interpretasiyasından asılı olmayaraq mövcud olduğunu iddia edən semiotiklərin müddəaları ilə həmrəy olduğunu bildirir. Dəniz heyvanlarının qalıqlarında məna var, lakin yadplanetli epistemiyalıda bu mənanı çıxara bilmək üçün lazımi koqnitiv bacarıqlar çatışmır. Belə bir cavabın uğur qazanması koqnitiv proseslərin əhəmiyyətini qəbul etməklə əldə oluna bilər. İşarəyə xas semiotik gücdən abstrakt formada danışmaq Daddesionun fikrincə, düzgün deyil. O, aktual işarələrdən danışarkən koqnitiv məsələlərin nəzərə alınmasını vacib hesab edir. Daddesio belə nəticəyə gəlir ki, Fiş açıq şəkildə mental proseslər haqqında bəhs etməsə də, onun işarə konsepsiyası bu prosesləri özündə əks etdirir.

Daddesio işarəni ideya və təfəkkür baxımından şərh edən Morris və Pirs mentalizmini yüksək qiymətləndirir. Həqiqətən də, bu yanaşma semio-koqnitiv paradiqma üçün perspektivlər aça bilər. Daddesio biheviorizm görüşlərində

Morrisin istisna təşkil edən mövqeyindən uzaqlaşaraq mental vahidlərin təhlilində Pirsin reduksionist mövqeyinə yaxınlaşmasını sezə bilmişdir. Pirsin fikirlərini koqnitiv semiotikanın ilk versiyası saymaq olar. Onun istifadə etdiyi terminologiya müasir koqnitivistlərin fikirlərinə uyğun gəlirdi. Dünyanın dərkinin tamamilə yeni formasına cəhd edən istənilən alim kimi Pirs də bu yeni dərki izah etməkdə mövcud vasitələrə əl atmışdır.

Daddesio diqqəti Pirsin işarə ilə bağlı təfəkkür konsepsiyasına yönəldir. Pirs yeganə təfəkkür formasını işarələrlə bağlayırdı, yəni dərk olunmayan təfəkkür mövcud deyil. Buna görə də təfəkkürün mövcudluğu mütləq şəkildə işarələrlə əlaqələndirilirdi.

Təbii ki, "işarə" və "təfəkkür" koqnisiya və semiozis arasındakı qarşılıqlı əlaqəni şərtləndirir. "*Bu fikrə görə Pirsin bir çox davamçıları onu koqnitiv semiotika ilə əlaqələndirmişlər. Onun Dekartın ardınca getməməsi və introspeksiyaya (özünütəhlilə) epistemik status verərək daha önə çıxarmasına diqqət yetirmək lazımdır. Pirs kartezian fikirlərində olan "təfəkkürə cəld çıxış" anlayışına qarşı "ikiqat semiotik vasitə" anlayışından istifadə edir*" [ibid:30-31].

T.Daddesio Ç.Pirsə istinadən qeyd edir ki, təfəkkürə gedən yol işarələrdən keçir. İnsanın öz təfəkkürünə vasitəsiz çıxışı yoxdur. Fikirlərin manifestasiyası işarənin mənaları ilə üzə çıxır. Daddesio düşüncələrin işarələrdən ibarət olduğunu və nəticə etibarilə koqnisiyanın semiotik anlamda başa düşülməsini təsdiqləyir. Pirsin əsas məqsədi semiozisin koqnitiv nəzəriyyəsini yaratmaq deyildi. Ona görə də, burada se-

miozisin koqnitiv anlamda dərk olunması önə çəkilmirdi. O, özünəqədərki təfəkkür problemlərini semiotika ilə əlaqələndirmək və göstərmək istəyirdi ki, semiotik baxımdan yanaşdıqda həmin məsələlər həllini tapır. İşarə nəzəriyyəsində koqnisiyaya yer ayırmaq əvəzinə Pirs əvvəlki nəzəriyyələrdə "mən" və biliklə bağlı konsepsiyalardakı mental vəziyyətlərin rolunu semiotik konsepsiyalarla əvəz edir. Daddesio məsələyə belə münasibət sərgiləyir: "*Mən bunu "fikirlərin əhliləşdirilməsi" (domestication of thoughts) adlandırardım: onun məqsədi təfəkkür haqqında müzakirələri işarələr haqqında müzakirələrlə əvəz etmək idi. O öz işarə konsepsiyasında təfəkkürə yer verməyə çalışmırdı. Görmək olar ki, fikirlərin işarələr səviyyəsində reduksiyası Pirsin ümumi strategiyasına daxil idi. Belə ki, bu strategiya ümumilikdə məna, bilik və təcrübə kimi xüsusi kriteriyaları ümumi kriteriyalarla əvəzləmə strategiyasına daxil idi*" [ibid:32].

Daddesio bütün gücü ilə mentalizmi önə çıxararaq Pirslə C.Loku qarşılaşdırır. Pirsin qarşısına daha ambisiyalı məqsədlər qoyduğunu, cümlənin mənasının onun həssas effekti olduğunu hesab etməsini irəli sürməklə birmənalı şəkildə C.Lokun fikirlərinə qarşı çıxmasını söyləyən Daddesio işarənin təqdim olunması zamanı yaranan obraz və ya mental ideyanı dəstəkləyir. Bu mənada o, C.Lokun yanında olduğunu açıq bildirir. "İdeya"lardan "duyulan effektlərə" keçid etməklə Pirs mənanın xüsusi kriteriyasından ümumi kriteriyalarına keçir. Bundan başqa o iddia edir ki, ideyaların mövcudluğu haqqında yalnız davranışdan nəticə çıxarmaq olar, buna görə də, mental varlıqlara müraciət insanın müşahidə

edə bilmədiyi davranış haqqında bilik verə bilmir. Daddesio iddia edir ki, bu qəbil yanaşma daxilində semiozis öz qapılarını koqnitiv proseslərin üzünə bağlayır. Amma bütün bunlara baxmayaraq, Pirsin yanaşmaları koqnisiyadan yan keçə bilmir. Məsələn, onun işarəni "kimisə hansısa bacarıq və ya əlaqəyə görə ifadə edən nəsə" kimi tərif etməsi mentalistik fikirlərə yol açır [ibid:33]. Daddesio Pirsin xanım Velbiyə yazdığı məktubu təqdim edir:

"*Mən işarəni başqa şey tərəfindən müəyyən edilən bir şey kimi tərif edirəm. Həmin başqa şey onun obyekti adlanır. Həmin obyekt insan üzərində müəyyən effekt yaradır. Həmin effekti onun interpretantı adlandırıram. Burada birinci (işarə – G.B.) sonuncunu (interpretantı – G.B.) müəyyən edir. Mən "upon a person" (şəxs üzərində) deməklə sop to Cerberus (aranı sakitləşdirmək – G.B.) etməyə səy göstərirəm, çünki hələ bu mövzuda öz fikirlərimi anlamağa çalışıram*" [ibid:33].

Ç.Pirsin ideyaları işarələrlə əvəzləməsi cəhdlərini Daddesio reduksionizmlə bağlayırdı. Yəni bu reduksionizm işarə nəzəriyyəsinin xeyrinə həll olunan strategiya idi. Lakin Daddesio Pirsin reduksionist mövqeyini Morrisin eliminativ (xaric etmə) mövqeyindən daha tolerant hesab edir.

T.Daddesio Rober Almederin "Pirs məna haqqında" adlı məqaləsinə də münasibət bildirərək belə qənaətə gəlir ki, abstrakt varlıqlara da müraciət edən Pirsin ümumi konsepsiyaları koqnitiv yanaşmanı inkar etmir. Bu baxımdan Pirsin Allah və Mütləq Təfəkkür haqqında mülahizələrindən yan keçmək olmaz. Pirs dərk edirdi ki, təkcə maddi yanaşma ilə

bütün prosesləri izah etmə cəhdləri uğursuzdur. Abstakt konstruksiyalara müraciət etmədən semiotika qurmaq mümkünsüzdür. Daddesio mədəni cəhəti qabardan Ekonun fikirlərini təhlil edərək bildirir ki, işarənin referentini tapmaq üçün edilən hər bir cəhd həmin referenti abstrakt varlıq kimi müəyyən etməyə vadar edir, və o (referent – *G.B.*) yalnız mədəni şərtdir (kultural konvensiyadır). Burada işarənin konkret referentindən bəhs olunur[ibid:37-39].

Diqqət etdikdə görürük ki, istər Daddesio, istərsə də Eko kultural konvensiya hesab etdikləri bu referenti abstakt varlıq kimi qəbul edirlər. Bu isə semiotikanın abstakt vahidlərlə əlaqəli olmasını və bu vahidlərsiz mümkün olmadığını bir daha təsdiq edir. Deməli təfəkkürlə işarə arasında qırılmaz əlaqə vardır. İşarənin semiotik tutumu insan təfəkkürünün süzgəcindən keçərək məhdudlaşa, ya genişlənə bilər. Məhz təfəkkürün və biliyin sayəsində işarə öz məna potensialını üzə çıxarır.

**Günel Məhəmməd qızı Bayramova**
italyanşünas, dil nəzəriyyəçisi, filologiya elmləri doktoru,
Azərbaycan Dillər Universitetinin dosenti

# DİL KOQNİTİV, RİTORİK VƏ NEYROBİOLOJİ ELMLƏRİN QOVŞAĞINDA

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Ömər Qasımlı

---

Yığılmağa verilmişdir: 27.03.2025
Çapa imzalanmışdır: 30.04.2025
Format: 60×84 1/16; şərti çap vərəqi 11,25
Sifariş № 197; tiraj 100 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com